“Bank Olmayan Kredit Təşkilatı İDK” MMC
(VÖEN: 1401969931)

31 dekabr 2025-ci il tarixinə

MALİYYƏ HESABATI

Mündəricat

31 DEKABR 2025-Cİ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI.....

MÜSTƏQİL AUDİTORUN HESABATI

MALİYYƏ HESABATLARI

Maliyyə vəziyyəti haqqında Hesabat.....5

Mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında hesabat 6

Kapitalda dəyişikliklər haqqında Hesabat.....7

Pul vəsaitlərinin hərəkəti haqqında Hesabat.....8

Maliyyə hesabatları üzrə qeydlər;

1. Cəmiyyət haqqında məlumat .....

2. Əməliyyat mühiti .....

3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı.....

4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr .....

5. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi.....

6. Pul vəsaitləri və onların ekvivalentləri.....

7. Banklara qoyulmuş depozitlər.....

8. Müştərilərə verilmiş kreditlər.....

9. Əmlak, tikili, avadanlıqlar və qeyri-maddi aktivlər.....

10.Aktivdən istifadə hüququ və icarə öhdəlikləri .....

11.Satınalanədək saxlanılan uzunmüddətli aktivlər .....

12.Digər aktivlər .....

13Nizamnamə kapitalı.....

14.Kapital ehtiyartları.....

15.Borc vəsaitləri.....

16.Əlaqəli tərəflərdən alınmış borc vəsaitləri .....

17.Buraxılmış borc, qiymətli kağızları.....

18.Digər öhdəliklər.....

19.Faiz gəlirləri və xərcləri.....

20. Ümumi və inzibati xərclər .....

21. Digər gəlirlər .....

22. Haqq və komissiya xərcləri .....

23. İşçi heyyəti üzrə xərclər .....

24. Mənfəət vergisi.....

25. Maliyyə risklərinin idarə edilməsi .....

26. Kapitalın idarə olunması .....
27. Təəhhüdlər və şərti öhdəliklər .....
28. Maliyyə alətlərinin ədalətli dəyəri .....
29. Əlaqəli tərəflər əməliyyatlar .....
30. Müqayisəli məlumatların yenidən təqdim edilməsi .....
31. Hesabat tarixindən sonra baş vermiş hadisələr .....

31 DEKABR 2025-Ci İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında (hesabatın 1-ci səhifəsi) göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Bank Olmayan Kredit Təşkilatı İDK" MMC (bundan sonra "Cəmiyyət") maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik xəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri MHBS Mühasibat uçotu Standartlarına müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlayarkən, rəhbərlik aşağıdakılara cavabdehdir:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
- Maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğunluğunun bəyan edilməsi və əgər bu standartlardan əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS Mühasibat Uçotu Standartlarının tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Cəmiyyətin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətn davamlılığı prinsipi əsasında hazırlanmasına.

Rəhbərlik həmçinin aşağıdakılara görə məsuldur:

- Cəmiyyətin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Cəmiyyətin maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Cəmiyyətin aktivlərinin qorunmasının təmin edilməsi və;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınmasına.

Cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə bitən il üzrə maliyyə hesabatları rəhbərlik tərəfindən təsdiq olunmuşdur.

"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC
direktoru: Nuri Fatimə Məmmədbağır qızı

Maliyyə Vəziyyəti Haqqında Hesabat

manat

	Qeyd	2025	2024
Aktivlər			
Uzunmüddətli aktivlər			
Qeyri maddi aktivlər	9	-	-
Torpaq, tikili və avadanlıqlar	9	38 456,67	16 026,48
Törəmə müəssisələrə investisiyalar	9	-	-
CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR		38 456,67	16 026,48
Qısamüddətli aktivlər			
Pul vəsaitləri və onların ekvivalentləri	7	157 106,92	73 043,16
Müştərilərə verilmiş kreditlər, lizinqlər və avanslar	8	705 317,11	666 566,93
Hesablanmış faizlər	9		
Aktivdən istifadə hüququ	10		
Avans vergi ödənişləri	11	3 446,89	4 391,89
Sair aktivlər	12	157 922,20	698 491,61
CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR		1 020 346,23	1 442 493,59
CƏMİ AKTİVLƏR		1 058 802,90	1 458 520,07
Kapital və öhdəliklər			
Kapital			
Ödənilmiş nominal (Nizamnamə) kapitalı	12	802 000	722 000
Kapital ehtiyatları	12	-	-
Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)	12	254 437,85	415 204,91
CƏMİ KAPİTAL		1 056 437,85	1 137 204,91
Öhdəliklər			
Uzunmüddətli öhdəliklər			
Təxirəsalınmış vergi öhdəliyi		-	-
Uzunamüddətli kreditor borcları		-	-
CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR		-	-
Qısamüddətli öhdəliklər			
Müddətli borc öhdəlikləri (bank kreditləri)	15	-	293 845,41
Buraxılmış borc qiymətli kağızlar	17	-	-
Əlaqəli tərəflərdən alınmış borc	16	70,13	-
Sair öhdəliklər	18	2 294,92	27 469,75
CƏMİ QISAMÜDDƏTLI ÖHDƏLIKLƏR		2 365,05	321 315,16
CƏMİ ÖHDƏLİKLƏR		2 365,05	1 458 520,07
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR		1 058 802,90	1 458 520,07

"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC-nin direktoru: Nuri Fatimə Məmmədbağır qızı

Maliyyə Nəticələri Haqqında Hesabat

manat

	Qeyd	2025	2024
Effektiv faiz metodu ilə hesablanmış faiz gəlirləri	19	183 261,79	327 634,72
İşçi heyyəti üzrə	23	(161 802,10)	(677 131,03)
Faiz xərcləri	19	(463 622,68)	(3 523 570)
Faiz gəlirləri üzrə xalis marja		(442 162,79)	(349 496,31)
Kredit zərərləri üzrə ehtiyat xərci		-	-
Haqq və komissiya gəlirləri gəlirləri	21	14 083,81	1 866,00
Sair əməliyyat xərcləri	22	-	-
Marketinq və kommersiya xərcləri	22	(1 863,79)	(1 917,62)
İnzibati xərclər	20	(96 950,05)	(144 548,99)
Əməliyyat mənfəəti (zərəri)		(526 893,02)	(494 096,92)
Maliyyə gəlirləri	19	-	-
Maliyyə xərcləri	19	-	-
Fövqaladə gəlirlər	22	-	-
Fövqaladə xərclər	22	-	-
Vergitutmadan əvvəl mənfəət (zərər)		(526 893,02)	(494 096,92)
Mənfəət vergisi		-	-
Hesabat dövründə xalis mənfəət (zərər)		(526 893,02)	(494 096,92)
Xitam verilmiş əməliyyatlar		-	-
Hesabat dövrünə aid olmayan xalis mənfəətdən çıxılmalar		-	-
Xalis mənfəətdən çıxılmalar		-	-
Hesabat dövründə xalis mənfəət (zərər)		-	-
Mənfəətdə iştirak payı:			
- Təsisçilərin payı		100	100
- 1 paya düşən mənfəət		-	-

"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC-nin direktoru: Nuri Fatimə Məmmədbağır qızı

Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat

	Qeyd	manat 2025	2024
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti:			
Vergitutmadan əvvəl mənfəət (xərclər)		-	-
Mənfəət vergisi üzrə xərclər		-	-
Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:		-	-
Bina, qurğu və avadanlıqların amortizasiyası	13	3 439,47	6 190,41
Qeyri maddi aktivlərin amortizasiyası	13	-	-
Bina, qurğu və avadanlıqların xaricolmasından mənfəət		-	-
Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:		-	-
Ehtiyatlar üzrə artma/azalma	11	-	-
Debitor borcları üzrə artma/azalma	14	(37 805,18)	866 771,16
Sair aktivlər üzrə artma/azalma	15	544 016,30	122 778,88
Əməliyyat kreditor borcları üzrə artma/azalma	16	-	-
Vergi və sosial sığorta öhdəlikləri üzrə artma/azalma	18	(6 317,08)	858,68
Bank kreditor borcları üzrə artma/azalma	17	(293 845,41)	(301 305,13)
Sair kreditor borcları üzrə artma/azalma	18	(18 787,62)	(70 188,45)
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti		190 700,48	625 105,45
İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti:			
Əsas vəsaitlərin alınması	13	(25 869,66)	(1 866,00)
Qeyri-maddi aktivlərin alınması	13	-	-
Əsas vəsaitlərin xaricolması üzrə qalıq dəyəri	13	-	-
Əsas vəsaitlər və qeyri-maddi aktivlər məzənnə fərqi		-	-
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti		164 830,82	623 239,55
Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin hərəkəti:			
Borc ödənilməsi/ daxilolmalar		80 000	-
Kapitalda pay sahiblərinə ödənilən dividendlər		-	-
Təsisçiyə payına ödənilən dividendlər		-	-
Xalis mənfəətdən çıxılmalar		(160 767,06)	(652 223,53)
Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti		84 063,76	(28 983,98)
Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)		-	-
Valyuta fərqləri		-	-
1 Yanvar tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri	12	73 043,16	102 027,14
31 Dekabr tarixinə pul vəsaitləri və pul vəsaitləri ekvivalentləri	12	157 106,92	73 043,16

"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC direktoru: Nuri Fatimə Məmmədbağır qızı

Kapitalda Dəyişikliklər Haqqında Hesabat

manat

	eyd	Nizamnamə kapitalı	Kapital ehtiyatları	Bölüşdürülməmiş mənfəət	Sair ehtiyatlar	Cəmi kapital
01 yanvar 2024-cü il tarixə		722 000	-	1 067 428,44	-	1 789 428,44
Aktivlərin yenidən qiymətləndirilməsi		-	-	-	-	-
Hesabat dövründə xalis mənfəət (zərər)		-	-	(652 223,53)	-	(652 223,53)
Mülkiyyətçilərin kaptal qoyuluşları		-	-	-	-	-
Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər)		-	-	-	-	-
31 dekabr 2024-cü il tarixə		722 000	-	415 204,91	-	1 137 204,91
01 yanvar 2025-ci il tarixə		722 000	-	415 204,91	-	1 137 204,91
Aktivlərin yenidən qiymətləndirilməsi		-	-	-	-	-
Hesabat dövründə xalis mənfəət (zərər)		-	-	(160 767,06)	-	(160 767,06)
Mülkiyyətçilərin kaptal qoyuluşları		80 000	-	-	-	-
Mülkiyyətçilər arasında kaptalın bölüşdürülməsi (dividendlər)		-	-	-	-	-
31 dekabr 2025-ci il tarixə		802 000	-	254 437,85	-	1 056 437,85

"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC
direktoru: Nuri Fatimə Məmmədbağır qızı

1. Cəmiyyət haqqında məlumat

Cəmiyyət və onun əsas fəaliyyəti

Hazırkı maliyyə hesabatları 31 dekabr 2025-ci ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynalxalq Standartlarına (MHBS) uyğun olaraq "Bank Olmayan Kredit Təşkilatı İDK" MMC ("Cəmiyyət") üçün tərtib edilmişdir.

Cəmiyyət 21 aprel 2011-ci ildə təsis edilmişdir.

"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC AZ 1052, Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Ə. Rəcəbli 1, ev 29 ünvanda qeydiyyatdan keçmişdir.

Cəmiyyət xüsusi razılıq tələb olunan fəaliyyət növləri üzrə müvafiq razılıq (lisenziya) aldıqdan sonra Azərbaycan Respublikası qanunvericiliyi ilə qadağan edilməyən hər hansı bir fəaliyyətlə məşğul ola bilər. Cəmiyyətin əsas fəaliyyəti Azərbaycan Respublikasında iqtisadiyyatın müxtəlif sahələrinə kreditlərin verilməsilə mə.ğul olur.

31 dekabr 2025-ci il tarixində Cəmiyyətin mülkiyyətinin pay bölgüsü aşağıdakı kimi olmuşdur:

Mülkiyyətçi	*2025-%*	*2024-%*
Əsgərov Əliyar Əsgər oğlu	100	100
Cəmi:	100	100

2. Əməliyyat mühiti

Cəmiyyət fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir və nəticədə Azərbaycanın iqtisadi və maliyyəbazarlarının inkişaf etməkdə olan bazar xüsusiyyətlərinə məruz qalır.

Azərbaycanın iqtisadiyyatı, bir çox inkişaf etməkdə olan bazarlar kimi, qlobal iqtisadi şərtlər, hökumət siyasətivə enerji qiymətlərindəki dalğalanmalardan təsirlənməyə davam edir. Ölkə iqtisadiyyatın şaxələndirilməsinə diqqət yetirsə də, əsas sahələrdə sabitliyin qorunması uzunmüddətli inkişaf üçün vacibdir. Azərbaycanın iqtisadiyyatının gələcək inkişaf istiqaməti əsasən fiskal və monetar siyasətlərin effektivliyindən, həmçinin xam neft qiymətlərindən və milli valyutanın sabitliyindən asılıdır.

Hüquqi, vergi və tənzimləyici baza inkişafa davam edir, lakin müxtəlif şərhlərə və tez-tez dəyişikliklərə məruz qalır ki, bu da digər hüquqi və fiskal maneələrlə birlikdə Azərbaycanda fəaliyyət göstərən qurumların üzləşdiyi çətinliklərə kömək edir. Neftin qiymətindəki dəyişkənlik və Rusiya Federasiyası ilə Ukrayna arasında davam edən hərbi münaqişə biznes mühitində qeyri-müəyyənliyi daha da artırıb.

Azərbaycan iqtisadiyyatı xüsusilə neft və qaz qiymətlərinə həssasdır. Son illər Azərbaycan hökuməti daha balanslaşdırılmış iqtisadiyyata keçidi sürətləndirmək və neft-qaz sektorundan asılılığı azaltmaq üçün böyük iqtisadi və sosial islahatları davam etdirmişdir.

2025-ci il ərzində Azərbaycan iqtisadiyyatı hökumətin apardığı iqtisadi islahatlar, sabit məzənnə rejimi və adekvat valyuta ehtiyatları ilə dəstəklənən ümumi makroiqtisadi sabitlik nümayiş etdirməkdə davam edib.

Beynəlxalq kredit reytinq agentlikləri Azərbaycanın iqtisadi perspektivlərini qiymətləndirməyə davam ediblər. Böyük suveren fond aktivləri, davamlı xalis ümumi dövlət aktivləri mövqeyi və karbohidrogen qiymətlərinin dəyişkənliyinə qarşı əhəmiyyətli qorunma təmin edən aşağı dövlət borcu sayəsində Azərbaycanın fiskal və xarici buferləri müstəsna dərəcədə güclü olaraq qalır. 05 dekabr 2025-ci il tarixində S&P Global RatingsAzərbaycan üzrə proqnozunu sabitdən müsbətə dəyişdi. Eyni zamanda, S&P Global Ratings Azərbaycanın uzun və qısamüddətli xarici və yerli valyutada suveren kredit reytinqlərini "BB+/B" səviyyəsində təsdiqləyib. Beynəlxalq reytinq agentliyi Moody's Azərbaycanın suveren kredit reytinqini

"Baa3" səviyyəsində təsdiqləyib. Reytinq proqnozu Moody's tərəfindən "müsbət" olaraq təsdiqlənib. Agentlik qeyd edir ki, Azərbaycanın kredit reytinqi əhəmiyyətli maliyyə buferləri ilə dəstəklənir və bu, xarici şoklara qarşı həssaslıq risklərini azaldır. İqtisadi islahatlar neftdən asılılığın azaldılması və özəl sektorun stimullaşdırılması ilə yanaşı, iqtisadiyyatın şaxələndirilməsini yaxşılaşdırmaqda davam edir. Hökumət gələcək biznes mühitinə təsir edən vergi islahatları ilə yanaşı, sağlam rəqabəti gücləndirmək üçün tədbirləri istiqamətləndirir. Burada neft-qaz sənayesinin modernləşdirilməsi, qeyri-neft sənayesinin inkişafı, alternativ enerji mənbələrindən istifadə imkanlarının

genişləndirilməsi, aqrar sektorun inkişafı, xarici ticarət və investisiya strukturunun təkmilləşdirilməsi kimi bir neçə istiqamət diqqət mərkəzindədir.

Azərbaycan Respublikasının gələcək iqtisadi artımı daha çox vergi, hüquqi, tənzimləyici və siyasi hadisələrlə yanaşı, Hökumətin həyata keçirdiyi iqtisadi, maliyyə və monetar tədbirlərin effektivliyindən asılıdır. Cəmiyyət rəhbərliyi mövcud şəraitdə iqtisadi inkişafı izləyir və yaxın gələcəkdə Cəmiyyətin davamlılığını dəstəkləmək və biznesini inkişaf etdirmək üçün zəruri hesab etdiyi qabaqlayıcı tədbirlər görür.

3. Əhəmiyyətli uçot prinsiplərinin icmalı

Maliyyə hesabatlarının tərtib edilməsinin əsasları

Hazırkı maliyyə hesabatları maliyyə alətlərini ilkin olaraq ədalətli dəyərdə tanımaqla, Maliyyə Hesabatı Beynəlxalq Standartları ("MHBS") Mühasibat Uçotu Standartlarına uyğun olaraq ilkin dəyər metoduna əsasən hazırlanmışdır. Bu maliyyə hesabatlarının hazırlanmasında istifadə edilən əhəmiyyətli uçot siyasətləri aşağıdakı formada göstərilir:

Fas ik prinsipi

Bu maliyyə hesabatları Cəmiyyətin daimilik prinsipi əsasında fəaliyyət göstərməsini və yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Məzənnə göstəricisi

4. Hazırkı maliyyə hesabatlarındakı məbləğlər başqa valyuta göstərilmədiyi halda Azərbaycan manatı ("AZN") ilə təqdim olunmuşdur.

Maliyyə alətləri əsas qiymətləndirmə üsulları

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərdə qeydə alınır.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərə və maliyyə alətlərinin sayına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Fəal bazarda alınıb-satılmayan digər maliyyə aktivləri və öhdəlikləri üzrə portfel mövcud bazar şəraitində qiymətləndirmə tarixinə bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən müəyyən riskin qəbul edilməsi üçün xalis uzun mövqenin (yəni, aktivin) satılması və ya müəyyən riskin qəbul edilməsi üçün xalis qısa mövqenin (yəni, öhdəliyin) ötürülməsi məqsədilə əldə edilə biləcək qiymət əsasında maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunun ədalətli dəyərində qiymətləndirilir. Bu, dövri olaraq ədalətli dəyərdə qeydə alınan aktivlərə o şərtlə tətbiq edilir ki, Cəmiyyət (a) müəssisənin risklərin idarə edilməsi və ya investisiya strategiyasına uyğun olaraq məruz qaldığı müəyyən bazar riski (və ya risklərinə) və ya müəyyən kontragentin kredit riskinə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupunu idarə edir; (b) həmin prinsipə əsasən maliyyə aktivləri və maliyyə öhdəlikləri qrupu haqqında məlumatı müəssisənin baş rəhbərliyinə təqdim edir; və (c) bazar riskləri, o cümlədən müəssisənin maliyyə aktivləri və maliyyə öhdəlikləri ilə əlaqədar məruz qaldığı müəyən bazar riskinin (və ya risklərinin) müddəti əsasən eyni olur. Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir.

- 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir,
- 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiy qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir,
- 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

-

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya olunmuş dəyər (AD) əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə gözlənilən kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir.

Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər-hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatın müvafiq maddələrinin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin balans dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur.

Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi balans dəyərinə diskontlaşdıran dərəcədir.

Maliyyə alətlərinin ilkin tanınması

MZƏD kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri və ədalətli dəyərin dəyişməsi sair məcmu gəlirə aid edilən ("DMGƏD") borc alətlərinə investisiyalar üzrə gözlənilən kredit zərərləri üçün ehtiyat tanınır və bu da aktivin ilkin tanınmasından dərhal sonra zərərin tanınması ilə nəticələnir. Qanunvericilik və ya ümumi qəbul edilmiş bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində təchiz olunması nəzərdə tutulan maliyyə aktivlərinin bütün digər alış və satışları ("standart şərtlər" əsasında alış və satışlar), Cəmiyyətin maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar Cəmiyyətin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduğu halda tanınır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: qiymətləndirmə Kateqoriyaları

Cəmiyyət maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsnifləşdirir və ölçür. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Cəmiyyətin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: biznes model

Biznes model Cəmiyyətin nağd pul axınları əldə etməsi məqsədilə portfelin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir və Cəmiyyətin məqsədinin: (i) aktivlərdən yalnız müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması") və ya (ii) müqavilədə nəzərdə tutulan və aktivlərin satışından yaranan nağd pul axınlarının əldə edilməsi ("müqavilə üzrə nağd pul axınlarının əldə edilməsi və maliyyə aktivlərinin satılması üçün aktivlərin saxlanılması") olub-olmadığını müəyyən edir. (i) və (ii) bəndlər tətbiq edilmədikdə, maliyyə aktivləri "digər" biznes modellərə aid edilir və MZƏD kateqoriyasında ölçülür. Biznes model qiymətləndirmə tarixində mövcud olan portfel üzrə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Cəmiyyətin həyata keçirməyi planlaşdırdığı fəaliyyətə dair bütün müvafiq sübutlar əsasında aktivlər qrupu (portfel səviyyəsində) üçün müəyyən edilir. Biznes modelin müəyyən edilməsi zamanı Cəmiyyətin nəzərə aldığı amillərə portfelin məqsədi və tərkibi, müvafiq aktivlər üzrə pul axınlarının əldə edilməsi ilə bağlı keçmiş təcrübə, risklərin qiymətləndirilməsi və idarə edilməsi üzrə yanaşmalar və aktivlər üzrə gəlirliliyin qiymətləndirilməsi üsulları daxildir.

Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi: pul axınlarının xüsusiyyətləri

Biznes model müqavilə üzrə pul axınlarının əldə edilməsi və ya müqavilə üzrə pul axınlarının əldə edilməsini və maliyyə aktivlərinin satılması üçün saxlanılmasını nəzərdə tutduqda, Cəmiyyət pul axınlarının yalnız əsas borc və faiz ödənişlərindən ibarət olub-olmadığını qiymətləndirir (YƏMFÖ təhlili). Müqavilə şərtləri əsas kredit sazişinin şərtlərinə uyğun olmayan riskə və ya dəyişkənliyə məruz qalmanı nəzərdə

tutduqda, müvafiq maliyyə aktivi MZƏD kateqoriyasında təsnifləşdirilir və qiymətləndirilir. YƏMFÖ təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir.

Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi

Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə, bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Cəmiyyət cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

Maliyyə aktivlərinin dəyərsizləşməsi: gözlənilən kredit zərərləri üzrə ehtiyat

Cəmiyyət amortizasiya olunmuş dəyərdə ölçülən borc alətləri üzrə gözlənilən kredit zərərlərini (GKZ) proqnozlar əsasında qiymətləndirir. Cəmiyyət hər bir hesabat tarixində gözlənilən kredit zərərlərini qiymətləndirir və kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatı tanıyır. Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat Amortizasiya olunmuş dəyərdə ölçülən borc alətləri gözlənilən kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

Cəmiyyət maliyyə aktivlərinin ilkin tanınmasından etibarən kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanaraq üç mərhələli dəyərsizləşmə modeli tətbiq edir. İlkin tanınma zamanı dəyərsizləşməmiş maliyyə aləti 1-ci mərhələyə təsnifləşdirilir. 1-ci mərhələdə maliyyə aktivləri üzrə gözlənilən kredit zərərləri növbəti 12 ay ərzində və ya müqavilədə nəzərdə tutulan ödəniş tarixinə qədər (12 ay bitənə qədər) baş verə bilən defolt hadisələri nəticəsində yaranmış bütöv müddət üçün gözlənilən kredit zərərləri ("12 aylıq gözlənilən kredit zərəri") məbləğində qiymətləndirilir. Cəmiyyət ilkin tanınma vaxtından etibarən kredit riskində əhəmiyyətli dərəcədə artımın ("KRƏA") baş verdiyini müəyyən edərsə aktiv 2-ci mərhələyə köçürülür və həmin aktiv üzrə gözlənilən kredit zərərləri bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında, yəni müqavilədə göstərilən ödəmə tarixinə qədər, lakin gözlənilən hər hansı qabaqcadan ödənişləri nəzərə almaqla ("bütöv müddət üçün gözlənilən kredit zərərləri") qiymətləndirilir.

Maliyyə aktivlərinin tanınmasının dayandırılması

Cəmiyyət aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Cəmiyyət maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin, həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları

Maliyyə öhdəlikləri sonradan amortizasiya olunmuş dəyərlə ölçülür.

Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması

Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentlərinə kassada olan pul vəsaitləri, banklarda saxlanılan depozitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri AD-də uçota alınır, çünki (i) onlar müqavilə üzrə pul vəsaitləri hərəkətinin yığılması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti YƏMFÖ-nü təmsil edir və (ii) MZVƏD-də təyin olunmur. Müəyyən ölkələrdə təminat qanunvericiliyi kimi yalnız qanunvericiliklə nəzərdə tutulmuş xüsusiyyətlər, qanunvericilik sonradan dəyişdirilsə belə, bu xüsusiyyətin tətbiq olunacağı müqavilə şərtlərinə daxil edilmədiyi halda, YƏMFÖ testinə təsir göstərmir.

Müştərilərə verilmiş kreditlər və avanslar

Müştərilərə verilmiş kreditlər və avanslar amortizasiya olunmuş dəyərlə qeydə alınmış və dəyərsizləşmə üzrə zərərlər maliyyə aktivinin ilkin tanınmasından sonra baş vermiş bir və ya bir neçə hadisə ("zərər hadisəsi") nəticəsində yarandıqda və bu zərər hadisəsi maliyyə aktivi və ya maliyyə aktivləri qrupu üzrə daxil olacaq pul axınlarının məbləğinə və vaxtına etibarlı şəkildə təxmin edilə bilən təsir göstərdikdə mənfəət və ya zərərdə tanınmışdır. Cəmiyyət əhəmiyyətli olub-olmamasından asılı olmayaraq, fərdi şəkildə qiymətləndirilən maliyyə aktivinin dəyərsizləşməsinə dair obyektiv sübutun olmadığı qənaətinə gəldikdə, həmin aktivi analoji kredit riski xüsusiyyətlərinə malik olan maliyyə aktivləri qrupuna daxil etmiş və onların dəyərsizləşməsini məcmu şəkildə təhlil etmişdir.

Maliyyə aktivinin dəyərsizləşməsini müəyyən edərkən Cəmiyyətin nəzərə aldığı əsas amillər həmin aktivin

vaxtı keçməsi statusu və hər hansı girov təminatının realizasiya oluna bilməsidir. Kredit üzrə zərərin baş verməsinə dair obyektiv əlamətlərin mövcud olmasını müəyyən edən əsas meyarlar aşağıda göstərilir:

- hər-hansı ödənişin gecikdirilməsi və bu zaman gecikdirilmiş ödənişin hesablaşma sistemlərindəki gecikmə ilə izah edilə bilməməsi;
- borcalanın əhəmiyyətli maliyyə çətinlikləri ilə üzləşməsi və bunun Cəmiyyətin borcalan haqqında maliyyə məlumatları ilə təsdiqlənməsi;
- borcalanın müflisləşməsi və ya onun maliyyə strukturunun yenidən təşkil edilməsi;
- borcalana təsir göstərən milli və ya yerli iqtisadi şəraitin dəyişməsi nəticəsində onun ödəniş statusunda mənfi dəyişikliklərin baş verməsi; və ya
- girovun dəyərinin bazar şərtlərinin pisləşməsi nəticəsində əhəmiyyətli dərəcədə aşağı düşməsi.

Kredit zərərinin məcmu şəkildə qiymətləndirilməsi məqsədilə maliyyə aktivləri kredit riski üzrə oxşar xüsusiyyətlərə görə qruplaşdırılmışdır. Həmin xüsusiyyətlər qiymətləndirilən aktivlərin müqavilə şərtlərinə əsasən borcalanların ödəmə qabiliyyətini təsdiqləmişdir ki, bu da belə aktivlərlə bağlı gələcək pul vəsaitlərinin təxmin edilməsi üçün uyğun olmuşdur.

Kredit zərəri məcmu şəkildə qiymətləndirilən maliyyə aktivləri qrupundakı pul vəsaitlərinin gələcək hərəkəti, həmin aktivlərlə bağlı müqavilə üzrə pul vəsaitlərinin hərəkətinə, keçmişdə baş vermiş zərər halları nəticəsində yaranacaq vaxtı keçmiş borcların həcminə dair rəhbərlikdə mövcud olan statistikaya və vaxtı keçmiş borcların geri qaytarılması nailiyyətinə əsasən müəyyən edilmişdir. Keçmiş dövrlərə təsir göstərməyən cari şəraitin təsirini əks etdirmək və cari dövrdə mövcud olmayan keçmiş hadisələrin təsirini aradan qaldırmaq məqsədilə, keçmiş illərin statistikası müşahidə edilə bilən cari məlumatlara əsasən tənzimlənmişdir.

Amortizasiya edilmiş dəyərlə əks etdirilən dəyərsizləşmiş maliyyə aktivi ilə bağlı şərtlərə yenidən baxıldıqda və ya bu şərtlər borcalanın və ya emitentin maliyyə vəziyyətindəki çətinliklərə görə dəyişdikdə, dəyərsizləşmə şərtlərin dəyişməsindən əvvəlki effektiv faiz dərəcəsinə əsasən ölçülmüşdür. Şərtlərinə yenidən baxılmış aktivin tanınmasının dayandırılması zamanı risk və faydalar əhəmiyyətli dərəcədə dəyişdikdə, yeni aktiv ədalətli dəyərlə tanınmışdır. Bu, adətən ilkin və yeni gözlənilən nağd pul axınlarının cari dəyərləri arasındakı fərq əhəmiyyətli olduqda müşahidə olunmuşdur.

Aktivin balans dəyərini effektiv faiz dərəcəsi ilə diskont edilmiş gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinə (kreditlər üzrə baş verməmiş gələcək zərərlər istisna olmaqla) bərabərləşdirmək üçün aktivlər üçün dəyərsizləşmə üzrə zərərlər ehtiyat hesablarında qeydə alınır. Girov qoyulmuş maliyyə aktivi üzrə təxmin edilən gələcək pul vəsaitləri hərəkətinin cari dəyərinin hesablanması girovun alınması və satılması ilə bağlı məsrəflər çıxılmaqla, girov nəticəsində yarana bilən (girovun olub-olmaması ehtimal edildikdə) pul vəsaitlərinin hərəkətini əks etdirir.

Kredit üzrə zərərin məbləği sonrakı dövrdə baş vermiş hadisəyə görə azaldıqda və həmin azalma obyektiv olaraq zərərin qeydə alınmasından sonra baş vermiş hadisəyə (məsələn, borcalanın kredit reytinqinin artması kimi) aid edildikdə əvvəl qeydə alınmış dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərər hesabına yaradılmış ehtiyata düzəliş etməklə qaytarılmışdır.

Aktivlər qaytarıla bilmədikdə, onlar aktivin və ya onun hissəsinin bərpa olunması üçün bütün zəruri prosedurların tamamlanmasından və zərərin məbləğinin müəyyən edilməsindən sonra müvafiq zərər ehtiyatından silinmişdir. Əvvəllər silinmiş məbləğlərin qaytarılması il üzrə mənfəət və ya zərərdə dəyərsizləşmə üzrə zərərin azaldılması kimi uçota alınmışdır.

Satılanadək saxlanılan uzunmüddətli aktivlər

Satılanadək saxlanılan uzunmüddətli aktivlər Cəmiyyətin mülkiyyətinə keçmiş girov vaxtı keçmiş kreditlərlə bağlı Cəmiyyət tərəfindən əldə edilmiş maliyyə və qeyri-maliyyə aktivlərindən ibarətdir. Bu aktivlər əldə edildiyi zaman ilkin olaraq ədalətli dəyərdə tanınır və aktivlərin növündən və Cəmiyyətin həmin aktivləri istifadə etmək niyyətindən asılı olaraq əsas vəsaitlər, digər maliyyə aktivləri, investisiya mülkiyyəti və sair aktivlərin tərkibində mal-material ehtiyatlarına daxil edilir və sonradan belə aktivlər üzrə uçot siyasətlərinə uyğun olaraq yenidən qiymətləndirilir və uçota alınır.

Əmlak, tikili və avadanlıqlar, qeyri-maddi aktivlər

Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər yığılmış köhnəlmə və lazım olduqda, dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, aşağıda göstərilən dəyərlə uçota alınır.

Aktivin ilkin dəyəri onun alış dəyəri və ya tikinti xərcləri, bu aktivin istismara verilməsi ilə birbaşa bağlı olan xərclər, onun silinməsi öhdəliyi (əgər varsa) üzrə ilkin təxminlər və bütün şərtlərə cavab verən aktivlər üçün borc öhdəlikləri üzrə xərclərdən ibarətdir.

Köhnəlmə və amortizasiya

Əmlak, tikili və avadanlıqların köhnəlməsi düz-xətt metodundan istifadə etməklə onların ilkin dəyəri və ya yenidən qiymətləndirilmiş məbləğləri, təxmin edilən faydalı istifadə müddəti ərzində qalıq dəyərləri aşağıdakı kimi hesablanır:

- Binalar, tikintilər və qurğular - 7 faizədək;
- Maşın və avadanlıqlar - 20 faizədək;
- Nəqliyyat vasitələri - 25 faizədək;
- Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə - 20 faizədək;
- Sair əsas vəsaitlər - 20 faizədək

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı gözlənilən xərclər çıxıldıqdan sonra, Cəmiyyət tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Cəmiyyət aktivi onun fiziki istismar müddətinin sonuna qədər istifadə edəcəyini gözlədikdə, aktivin qalıq dəyəri sıfra bərabər olur. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

Aktiv və öhdəliklərdən ibarət uzunmüddətli aktivlər və ya xaric edilmə qruplarının, davamlı istifadə yolu ilə yox, ilk növbədə satış yolu ilə bərpa ediləcəyi gözlənilir və satış üçün saxlanılmış formada təsnif edilir. Satış üçün saxlanılmış kimi təsnif edilməzdən dərhal əvvəl, xaric edilmə qrupunun aktivləri və ya komponentləri Cəmiyyətin uçot siyasətinə uyğun olaraq yenidən ölçülür. Bundan sonra, ümumiyyətlə, aktivlər və ya xaric edilən qrup onların balans və satış dəyərindən çıxılmaqla ədalətli dəyərindən ən aşağı olanı ilə ölçülür. Aktiv, satış üçün saxlanılmış kimi təsnif edildikdə və ya satış üçün saxlanılan aktivlər qrupuna daxil edildikdən sonra heç bir əlavə köhnəlmə qeydə alınmır.

Banklardan alınmış borc vəsaitləri

Banklardan alınmış borc vəsaitlərinə rezident və qeyri-rezident banklardan, eləcə də digər maliyyə institutlarından müəyyən edilmiş ödəmə müddətləri və sabit faiz dərəcəsi ilə cəlb edilmiş kreditlər daxildir.

Müddətli borc öhdəlikləri ilkin tanınmadan sonra amortizasiya olunmuş dəyərdə qeydə alınır.

Mənfəət vergisi

Hazırkı maliyyə hesabatlarında əks etdirilən mənfəət vergisi Azərbaycan Respublikasının qüvvədə olan və ya hesabat dövrünün sonuna qüvvəyə minmiş qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarətdir və bu və ya digər dövrdə vergi təsiri bilavasitə sair məcmu gəlirlərdə qeydə alınan əməliyyatlar istisna olmaqla, məcmu gəlirlərdə qeydə alınır. Cari mənfəət vergisi cari və əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən mənfəət ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət maliyyə hesabatlarınınmüvafiq vergi bəyannamələrinin təqdim olunmasından əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi öhdəlik metodundan istifadə etməklə, aktiv və öhdəliklərin vergi bazası və maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün onların balans dəyəri arasında yaranan keçmiş illərin vergi zərəri və bütün müvəqqəti fərqlər üçün hesablanır. İlkin uçot zamanı istisna hal olaraq, əgər əməliyyat maliyyə mənfəəti və vergiyə cəlb edilən mənfəətə təsir göstərmirsə, aktiv və öhdəliyin ilkin qeydə alınması nəticəsində yaranan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi hesablanmır (biznes birləşməsi halları istisna olmaqla).

Təxirə salınmış vergi qalıqları, qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi dərəcələrinə əsasən müvəqqəti fərqlərin qaytarılacağı və ya keçmiş illərdən yığılmış vergi zərərlərinin istifadə ediləcəyi dövrdə tətbiq edilməli vergi dərəcələrindən istifadə etməklə hesablanır. Gəlirdən çıxılan müvəqqəti fərqlər üzrə təxirə salınmış vergi aktivləri və keçmiş illərin vergi zərərləri müvəqqəti fərqlərin geri qaytarılması, kifayət qədər vergi tutulan gələcək gəlirlərin yaranması və bu gəlirlər üzrə çıxılmaların istifadə edilməsi ehtimalını nəzərə alaraq tanınır.

Qeyri-müəyyən vergi mövqeləri

Cəmiyyətin qeyri-müəyyən vergi mövqeləri rəhbərlik tərəfindən hər bir hesabat dövrünün sonunda yenidən qiymətləndirilir. Rəhbərlik Cəmiyyətin vergi mövqeyinə vergi orqanları tərəfindən etiraz edildiyi halda, əlavə vergi öhdəliklərinin yaranmasını ehtimal etdikdə, vergi öhdəlikləri nəzərə alınmır. Bu cür qiymətləndirmə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş vergi qanunvericiliyinin təfsirinə və bu məsələlərə dair hər hansı məhkəmə və ya digər qurumların məlum qərarlarına əsasən aparılır. Mənfəət vergisi istisna olmaqla, cərimələr, penyalar və vergilər üzrə öhdəliklər hesabat dövrünün sonunda öhdəliklərin yerinə yetirilməsi üçün zəruri olan xərclərə dair rəhbərliyin ən yaxşı təxminləri əsasında uçota alınır.

Gəlir və xərclərin uçotu

Faiz gəlirləri və xərcləri effektiv faiz metodundan istifadə etməklə, hesablama metodu vasitəsilə bütün borc sənədləri üzrə mənfəət və ya zərərdə qeydə alınır. Bu üsul, faiz gəlirləri və ya xərclərinin bir hissəsi kimi, müqavilə tərəfi arasında ödənilən və ya alınan effektiv faiz dərəcəsinin, əməliyyat xərclərinin və bütün digər mükafatların və ya endirimlərin tərkib hissəsi olan bütün haqları təxirə salır. Effektiv faiz dərəcəsinin ayrılmaz hissəsi olan haqlara maliyyə aktivinin yaradılması və ya əldə edilməsi, və maliyyə öhdəliyinin emissiyası ilə bağlı Cəmiyyət tərəfindən alınan və ya ödənilən ilkin ödənişlər, məsələn, kredit qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun qiymətləndirilməsi və uçotu, əməliyyat sənədlərinin işlənməsində olan şərtlərin müzakirəsi üçün haqlar daxildir. Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Cəmiyyət tərəfindən alınmış komissiya haqları, Cəmiyyətin xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Cəmiyyət kreditlərin verilməsi üzrə öhdəlikləri MZƏD kateqoriyasına aid olunan maliyyə öhdəlikləri kimi təsnifləşdirmir.

Faiz gəliri, (i) dəyərsizləşmiş maliyyə aktivləri (3-cü mərhələ) istisna olmaqla, maliyyə aktivlərinin ümumi balans dəyərinə effektiv faiz dərəcəsinin tətbiqi yolu ilə hesablanır. Amortizasiya olunmuş maya dəyəri və gözlənilən kredit zərəri ehtiyatı çıxılmaqla, (ii) alınmış və ya dəyərsizləşmiş kreditdən yaranmış maliyyə aktivləri üçün ilkin kreditə uyğunlaşdırılmış effektiv faiz dərəcəsi amortizasiya olunmuş maya dəyərinə tətbiq edilir.

Haqq və komissiya gəlirləri

Haqq və komissiya gəlirləri müştərinin Cəmiyyət tərəfindən göstərilən xidmətlərin faydasını eyni anda qəbul və istifadə etdiyi müəyyən dövr ərzində düz xətt metodu ilə tanınır. Belə gəlirlərə zəmanət məktubları üzrə haqq və komissiyalar daxildir. Digər haqq və komissiya gəlirləri Cəmiyyət öz icra öhdəliyini yerinə yetirdiyi anda, adətən müvafiq əməliyyatı həyata keçirdikdən sonra tanınır. Alınmış və ya alınacaq haqq və komissiya məbləği fərqli icra öhdəlikləri kimi müəyyən edilmiş xidmətlər üzrə əməliyyat qiymətini əks etdirir.

Xarici valyutanın çevrilməsi

Cəmiyyətin əməliyyat valyutası onun fəaliyyət göstərdiyi əsas iqtisadi mühitin valyutası hesab edilir.

Cəmiyyətin funksional və təqdimat valyutası Azərbaycan Respublikasının milli valyutası olan Azərbaycan Manatıdır ("AZN").

Monetar aktiv və öhdəliklər Mərkəzi Bankın müvafiq hesabat tarixinə qüvvədə olan rəsmi valyuta məzənnəsinə əsasən Cəmiyyətin əməliyyat valyutasına çevrilir. Belə əməliyyatlar üzrə hesablaşmaların həyata keçirilməsi və monetar aktiv və öhdəliklərin Mərkəzi Bankın ilin sonuna müəyyən etdiyi rəsmi

məzənnə ilə Cəmiyyətin əməliyyat valyutasına çevrilməsi nəticəsində yaranan gəlir və zərər il üzrə mənfəət və ya zərərdə (məzənnə fərqi üzrə zərər çıxılmaqla gəlir kimi) tanınır. İlin sonuna qüvvədə olan məzənnə ilə çevrilmə ilkin dəyərlə qiymətləndirilən qeyri-monetar maddələrə tətbiq edilmir. Xarici valyutada olan və ədalətli dəyərlə qiymətləndirilən qeyri-monetar maddələr, o cümlədən səhm investisiyaları ədalətli dəyərin müəyyən edildiyi tarixə qüvvədə olan məzənnələrdən istifadə etməklə əməliyyat valyutasına çevrilir. Məzənnə dəyişikliklərinin pay qiymətli kağızların ədalətli dəyərinə təsiri ədalətli dəyərin dəyişməsindən yaranan gəlir və ya zərərin bir hissəsi kimi əks etdirilir.

31 ekabr 2025-ci il tarixinə ABŞ dolları, valyuta məzənnələri aşağıdakı kimi olmuşdur: 1 ABŞ dolları = 1.7000 AZN

Əvəzləşdirmə

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxiledilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

İşçi heyəti ilə bağlı xərclər və müvafiq ayırmalar

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Cəmiyyətin işçiləri tərəfindən müvafiq xidmətlər göstərildikdə hesablanır. Cəmiyyətin yerli qanunvericiliklə müəyyən edilmiş ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

İcarə müqavilələri

Cəmiyyət müqavilənin icarə müqaviləsi olub-olmaması və ya icarə kompenentinə sahib olub-olmaması, yəni

müəyyən bir haqq qarşılığında müəyyən müddət ərzində müəyyən aktivdən istifadə hüququnun olması faktını başlanğıc tarixində müəyyənləşdirir.

Cəmiyyət icarəçi qismində

Cəmiyyət qısa müddətli icarələr və az dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanınma və ölçülmə metodundan istifadə edir. Cəmiyyət icarə üzrə ödənişləri etmək üçün icarə öhdəlikləri və müvafiq aktivdən istifadə hüququnu təzahür edən aktivdən istifadə hüququ tanıyır.

i) Aktivdən istifadə hüququ

Cəmiyyət icarənin başlanğıc tarixində (yəni müvafiq aktivin istifadəyə hazır olduğu tarix) aktivdən istifadə hüququ tanıyır. Aktivdən istifadə hüququ yığılmış amortizasiya və dəyərsizləşmə çıxılmaqla maya dəyəri ilə uçota alınır və icarə öhdəliklərinin yenidən qiymətləndirilməsi üzrə düzəlişlərə məruz qalır. Aktivdən istifadə hüququnun maya dəyərinə tanınan icarə öhdəliklərinin dəyəri, ilkin birbaşa xərclər və icarə üstünlükləri çıxılmaqla başlanğıc tarixində və ya ondan əvvəl edilmiş icarə ödənişləri daxildir. Aktivdən istifadə hüququ icarə müddəti və ya aktivin ehtimal edilən ömür müddətindən daha qısa olan dövr üzrə düzxətli amortizasiya metoduna əsasən amortizasiya olunur.

Əgər icarəyə götürülmüş aktiv üzərində mülkiyyət hüququ icarə müddətinin sonunda Cəmiyyətə keçirsə və ya maya dəyəri özündə alış opsiyonundan istifadəni ehtiva edirsə, amortizasiya aktivin ehtimal edilən ömür müddəti üzrə aparılır.

ii) İcarə öhdəlikləri

İcarənin başlanğıc tarixində Cəmiyyət icarə müddəti ərzində ediləcək icarə ödənişlərinin indiki dəyəri qədər icarə öhdəliyi tanıyır. İcarə ödənişlərinə icarə üstünlükləri çıxılmaqla sabit ödənişlər, indeks və ya dərəcədən asılı olan dəyişən icarə ödənişləri və qalıq dəyər qarantiyası kimi ödənilməsi ehtimal edilən məbləğlər daxildir. İcarə ödənişlərinə həmçinin Cəmiyyət tərəfindən istifadə edilməsi əminliklə bilinən alış opsiyonu qiyməti və icarə müqaviləsinə xitam vermək səbəbindən veriləcək cərimələr də daxildir. İndeks və ya dərəcədən asılı olmayan dəyişən icarə ödənişləri (mal-material istehsalı üçün edilməyibsə) hadisənin baş verdiyi dövrdə xərc kimi tanınır.

İcarə ödənişlərinin indiki dəyərini hesablayarkən Cəmiyyət icarənin başlanğıc tarixində özünün borc alma faizindən istifadə edir, çünki icarədə ehtiva edilən faiz dərəcəsini müəyyən etmək mümkün deyil. Başlanğıc tarixindən sonra faiz toplanmasını əks etdirmək üçün icarə öhdəlikləri məbləği artır və edilmiş icarə ödənişlərini əks etdirmək üçün azalır. Əlavə olaraq, icarə şərtlərində, ödənişlərində (məsələn: belə icarə ödənişlərini müəyyən etmək üçün istifadə edilən indeks və ya dərəcələrdə dəyişiklik nəticəsində yaranan gələcək ödənişlərdə dəyişikliklər) və ya müvafiq aktivi alış opsiyonunda dəyişiklik olduğu təqdirdə icarə öhdəliklərinin qalıq dəyərinə yenidən baxılır. *(iii) Qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi*
Cəmiyyət əmlak və avadanlıqların qısa müddətli icarəsinə qısa müddətli icarənin tanınması üzrə azad olmanı tətbiq edir (məsələn: başlanğıc tarixindən etibarən 12 ay və daha az dövrü əhatə edən və alış opsiyonu olmayan (icarələr). Cəmiyyət həmçinin aşağı dəyərli sayılan ofis avadanlıqlarının icarəsinə aşağı dəyərli aktivlərin icarəsinin tanınması üzrə azad olmanı tətbiq edir. Qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi üzrə icarə ödənişləri icarə müddəti boyu düzxətli metod ilə xərc kimi tanınır. Cəmiyyətin bütün icarə müqavilələri qısa müddətli olduğundan Cəmiyyət bütün icarə müqavilələri üzrə azad olmanı tətbiq etmişdir.

Cəmiyyət icarədar qismində

Aktiv üzrə mülkiyyət hüququna aid olan risklərin və faydaların əksəriyyətini Cəmiyyətdən digər tərəfə keçirməyən icarələr əməliyyat icarələri kimi təsnif edilir. Əməliyyat icarəsi üzrə danışıqlar zamanı çəkilən ilkin birbaşa xərclər icarəyə götürülən aktivin balans dəyərinə əlavə olunur və icarə gəliri ilə eyni əsaslarla icarə müddəti boyunca tanınır. Şərti icarə haqları qazanıldığı dövrdə gəlir kimi tanınır.

4. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr

Cəmiyyət maliyyə hesabatlarında göstərilən məbləğlərə və aktiv və öhdəliklərin balans dəyərinə növbəti maliyyə ili ərzində təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və təxminlər irəli sürür.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi

Gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi müvafiq metodologiya, modellər və ilkin məlumatlardan istifadə etməklə aparılan əhəmiyyətli hesablamadır. Aşağıdakı komponentlər kredit zərərləri üzrə ehtiyata əhəmiyyətli dərəcədə təsir göstərir: defolt, kredit riskinin əhəmiyyətli dərəcədə artması (KRƏA), defolt ehtimalı (DE), defolta məruz qalan dəyər (DMQD), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ (DHZ), eləcə də makroiqtisadi ssenarilər. Cəmiyyət gözlənilən kredit zərərləri üzrə ehtimallar və faktiki kredit zərərləri arasındakı fərqlərin azaldılması məqsədilə modelləri və modellər üzrə məlumatları müntəzəm olaraq təhlil edir və təsdiqləyir.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması ilə bağlı qiymətləndirmə aparmaq üçün Cəmiyyət hesabat və ilkin tanınma tarixlərinə maliyyə aktivi üzrə hesablanmış müvafiq defolt risklərini müqayisə edir.

Qiymətləndirmə zamanı hesabat tarixinə kredit riskinin müəyyən səviyyəsi deyil, kredit riskinin nisbətən artması nəzərdən keçirilir. Cəmiyyət əldə olunması əlavə xərc tələb etməyən dəstəkləyici və əsaslandırılmış məlumatları, o cümlədən müəyyən müştəri portfellərinin davranış aspektləri daxil olmaqla, bir sıra amilləri nəzərə alır. Cəmiyyət defolt anına qədər kredit riskinin artması ilə bağlı davranış əlamətlərini müəyyən müəyyən edir və müvafiq proqnoz məlumatlarını fərdi maliyyə aləti və ya portfel səviyyəsində kredit riskinin qiymətləndirilməsində istifadə edir.

Biznes modelin qiymətləndirilməsi

Maliyyə aktivləri biznes model əsasında təsnifləşdirilir. Biznes modeli qiymətləndirərkən rəhbərlik birləşmə səviyyəsini və maliyyə alətləri üzrə portfelləri müəyyən etmək üçün mülahizələrdən istifadə etmişdir. Satış əməliyyatlarını qiymətləndirərkən Cəmiyyət onların əvvəlki dövrlərdə baş vermə tezliyini, müddətini və dəyərini, satış səbəblərini və gələcək satışlar ilə bağlı gözləntiləri nəzərə alır.

Kredit keyfiyyətinin pisləşməsinə görə potensial zərərlərin azaldılmasına yönəldilmiş satış əməliyyatları "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir. Kredit riskinin idarə olunması tədbirləri ilə bağlı olmayan ödəmə müddətinə qədər həyata keçirilən digər satışlar da nadir hallarda baş verməsi və dəyərinin ayrılıqda və ya məcmu olaraq əhəmiyyətli olmaması şərtilə, "pul axınlarının əldə edilməsi" biznes modelinə uyğun hesab edilir.

Cəmiyyət satış əməliyyatlarının əhəmiyyətini satışların həcmi ilə portfelin orta müddəti ərzində biznes modeli qiymətləndirilən portfelin dəyərini müqayisə etməklə qiymətləndirir. Bundan əlavə, yalnız "stress" ssenarilərdə və ya Cəmiyyətin nəzarətində olmayan, təkrar baş verməyən və Cəmiyyət tərəfindən proqnozalşdırıla bilməyən ayrıca hadisə ilə bağlı gözlənilən maliyyə aktivlərinin satışı biznes modelin məqsədi ilə əlaqəli olmayan satış əməliyyatı hesab olunur və müvafiq maliyyə aktivlərinin təsnifatına təsir göstərmir.

"Pul axınlarının əldə edilməsi və satılması" biznes modelində aktivlərin pul axınlarının əldə edilməsi üçün saxlanılması nəzərdə tutulsa da, aktivlərin biznes modelin məqsədlərinə (likvidlik ehtiyaclarının idarə olunması, müəyyən faiz gəlirlərinin əldə edilməsi və ya maliyyə aktivlərinin müddətinin həmin aktivlərin maliyyələşdirdiyi öhdəliklərin müddəti ilə uyğunlaşdırılması) nail olmaq üçün satışı onun tərkib hissəsi hesab edilir.

Digər kateqoriyaya əsasən satış vasitəsilə mənfəət əldə etmək üçün nağd pul axınlarının reallaşdırılması məqsədilə idarə olunan maliyyə aktivləri üzrə portfellər daxildir. Bu biznes model adətən müqavilədə nəzərdə tutulan pul axınlarının əldə edilməsi ilə əlaqəlidir.

Pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri ("YƏMFÖ") meyarına uyğunluğunun qiymətləndirilməsi

Maliyyə aktivi üzrə pul axınlarının yalnız əsas borc və faiz ödənişləri meyarına uyğunluğunu müəyyən etmək üçün mülahizələrin irəli sürülməsi tələb edilir.

Cəmiyyət müqavilə üzrə nağd pul axınlarının müddətini və ya məbləğini dəyişən müqavilə şərtlərini müəyyən etmiş və nəzərdən keçirmişdir. Nağd pul axınları o halda yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun hesab edilir ki, kreditin şərtlərinə görə onu vaxtından əvvəl ödəmək mümkün olsun, vaxtından əvvəl ödənilən məbləğ əsas borcu və hesablanmış faizləri, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyanı özündə əks etdirsin.

Aktiv üzrə əsas məbləğ əsas borc üzrə sonrakı ödənişlər (yəni, effektiv faiz metodundan istifadə etməklə müəyyən edilmiş faizsiz ödənişləri) çıxılmaqla, ilkin tanınma zamanı ədalətli dəyərə bərabərdir. Bu qaydada istisna hal olaraq standart, həmçinin qabaqcadan ödəniş elementlərinə malik olan alətlərə yalnız əsas borc və faiz ödənişləri meyarına uyğun olmaq üçün aşağıdakı şərtlərə cavab verməyə imkan yaradır: (i) aktiv mükafat və ya güzəştlə verildikdə (ii) qabaqcadan ödəniş məbləği müqavilə üzrə nominal dəyərdən və hesablanmış faizlərdən, eləcə də müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə əsaslandırılmış əlavə kompensasiyadan ibarət olduqda və (iii) ilkin tanınma zamanı vaxtından əvvəl ödəniş elementinin ədalətli dəyəri əhəmiyyətsiz olduqda.

Cəmiyyətin kredit müqavilələri makroiqtisadi və ya normativ şərtlərdəki müəyyən dəyişikliklərə cavab olaraq faiz dərəcələrinin tənzimlənməsinə imkan verir. Rəhbərliyin öz mülahizəsi və qiymətləndirməsinə görə, bank sektorundakı rəqabət və borcalanların kreditləri yenidən maliyyələşdirmək qabiliyyəti faiz dərəcələrini bazar səviyyəsindən daha yuxarı müəyyən etməsinə mane olur və buna görə də pul axınları SPPI meyarına uyğun qiymətləndirilir.

Əmlak və avadanlıqların faydalı istifadə ömrü

Rəhbərlik əmlak və avadanlıqların gözlənilən faydalı istifadə ömrünü və əlaqəli köhnəlmə xərclərini müəyyən edir. Bu ehtimal, Cəmiyyətin aktivlər üzrə təxmin etdiyi iqtisadi mənfəətlər üzrə proqnozlaşdırılan müddətə əsaslanır. Rəhbərlik köhnəlmə xərclərini, istifadə müddətinin, əvvəlki gözlənilən müddətdən daha az olduğu hallarda artırır və ya köhnəlmiş aktivləri tərk edilmiş və ya satılmışsa, bu aktivləri texniki olaraq qismən və ya bütünlüklə uçotdan silinir. Faydalı istifadə müddəti ən azı hər həsabat tarixində nəzərdən keçirilir.

Əlaqəli tərəflərlə əməliyyatların ilkin uçotu

Cəmiyyət öz fəaliyyəti gedişində əlaqəli tərəflərlə əməliyyatlar aparır. 9 saylı MHBS-ə uyğun olaraq maliyyə alətləri ilkin olaraq ədalətli dəyərdə uçota alınmalıdır. Lakin, həmin əməliyyatların bazar və ya qeyri-bazar faiz dərəcələrində həyata keçirilməsini müəyyən etmək məqsədilə bu cür əməliyyatlar üçün fəal bazar mövcud olmadıqda peşəkar mülahizələrdən istifadə etmək lazım gəlir. Mülahizələrin irəli sürülməsinin əsasını əlaqəli olmayan tərəflərlə analoji əməliyyatların qiymətinin müəyyən edilməsi və effektiv faiz dərəcəsinin təhlili təşkil edir.

Fasiləsiz fəaliyyət prinsipi

Rəhbərlik hazırkı maliyyə hesabatlarını fasiləsiz fəaliyyət prinsipinə əsasən hazırlamışdır. Belə bir mülahizə irəli sürərkən rəhbərlik Cəmiyyətin maliyyə vəziyyətini, mövcud planları, əməliyyatların gəlirliliyini və maliyyə resurslarından istifadəni nəzərə almış və son maliyyə böhranının Cəmiyyətin gələcək əməliyyatlarına təsirini təhlil etmişdir. Rəhbərliyin ölçü və hesabatlarına əsasən Cəmiyyət növbəti 12 ay

ərzində likvidlik ehtiyaclarını tənzimləyə biləcək və buna əsasən hazırkı maliyyə hesabatları fasiləsizlik prinsipi əsasında hazırlanmışdır.

5. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi

Cari ildə Cəmiyyət Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası (MUBSŞ) və MUBSŞ -in Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Cəmiyyətin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2025-ci il tarixində bitən hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.
Aşağıdakı dəyişikliklər 01 yanvar 2025-ci ildən qüvvəyə minib.

21 saylı MUBS-Mübadilə qabiliyyətinin olmamasına dəyişikliklər (15 avqust 2023-cü il tarixində dərc olunub və 01 yanvar 2025-ci il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvəyə minir)

MUBSŞ Müəssisələrə iki valyuta arasında mübadilə qabiliyyətinin qiymətləndirilməsinə və mübadilə qabiliyyəti olmadıqda spot məzənnənin müəyyən edilməsinə kömək etmək üçün 2023-cü il avqust ayında 21 saylı MUBS-yə dəyişikliklər dərc edib. Cəmiyyət dəyişikliklərdən xüsusi məqsəd üçün hesablama tarixində digər valyutaya mübadilə olunmayan xarici valyutada olan əməliyyatları olduqda təsirlənir.
21 saylı MUBS-yə dəyişikliklər Cəmiyyətin spot məzənnənin necə təxmin edilməsinin detallı tələblərini təmin etmir. Əvəzinə, onlar Cəmiyyətin hesablama tarixinə olan spot məzənnəni müəyyən edə biləcəyi qayda təyin edirlər. Yeni tələbləri tətbiq edəndə, müqayisəli məlumatları yeniləməyə icazə verilmir. İlkin tətbiq edilən zaman yenilənmiş məbləğlərin ehtimal olunan spot məzənnə ilə bölüşdürülməmiş mənfəətə və ya məcmu məzənnə fərqləri üzrə ehtiyata dəyişikliklərin edilməsi tələb olunur. Əksi qeyd olunmadığı təqdirdə, yuxarıda qeyd olunan dəyişikliklərin tətbiqi Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri olmamışdır.

Yeni uçot qaydaları

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Cəmiyyət tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Cəmiyyət bu yeni və dəyişiklik edilmiş standartları və şərhləri, əgər tətbiq olunarsa, qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

Maliyyə alətlərinin ölçülməsinə və təsnifatlaşdırılmasına olunan dəyişikliklər- 9 saylı MHBS və 7 saylı MHBS -yə olunan dəyişikliklər (30 may 2024-cü il tarixində dərc olunub və 01 yanvar 2026-cı il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvəyə minir).

30 may 2024-cü il tarixində MUBSŞ 9 saylı MHBS və 7 saylı MHBS-yə olunan dəyişiklikləri dərc edib:
• Bəzi maliyyə aktivlərinin və öhdəliklərinin tanınma və silinmə tarixlərinin aydınlaşması, elekton nağd pul köçürmə sistemi ilə ödənilən bəzi maliyyə öhdəlikləri üçün istisnadır;

• Maliyyə aktivinin yalnız əsas borc və faizlərin ödəniş şərtlərini (SPPİ) qarşılandığını qiymətləndirilməsi üçün növbəti təlimatların aydınlaşması və əlavə edilməsi;

• Nağd pul axınını dəyişə biləcək müqavilə şərti olan müəyyən alətlərin yeni açıqlamalarının əlavə olunması (ətraf mühitin, Cəmiyyətin və dövlət hədəflərinin çatması ilə bağlı xüsusiyyətləri olan bəzi alətlər); və
• Digər ümumi gəlirlər vasitəsi ilə ədalətli dəyərlə formalaşan kapital alətlərinin açıqlamalarının

yenilənməsi.

Bu nəşrə aşağıdakı düzəlişlər daxildir:

- 1 saylı MHBS: İlk dəfə tətbiq edənlər üçün hedcinq uçotuna dair aydınlaşdırmalar;
- 7 saylı MHBS: Tanınmanın dayandırılması ilə bağlı mənfəət və ya zərərin tanınması üzrə təlimat;
- 7 saylı MHBS: Ədalətli dəyər və əməliyyat qiyməti arasında təxirə salınmış fərqlər üçün təkmilləşdirilmiş açıqlamalar;
- 7 saylı MHBS: Tətbiqdə təkmilləşdirmələr və kredit riski ilə bağlı açıqlamalar;
- 9 saylı MHBS: İcarəyə götürənin icarə öhdəliklərinin tanınmasının dayandırılmasına dair izahatlar;
- 9 saylı MHBS: Əməliyyat qiymətinin müəyyən edilməsi üzrə əlavə təlimat;
- 10 saylı MHBS: "De-fakto agent"in müəyyən edilməsinə dair aydınlaşdırmalar;
- 7 saylı MUBS: Xərc metodu ilə bağlı təkmilləşdirmələr.

6. Yeni və yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi (davamı)

18 saylı MHBS Maliyyə hesabatlarının təqdimatı və açıqlamaları (09 aprel 2024-cü il tarixində dərc olunub və 01 yanvar 2027-ci il tarixindən başlayan və ya sonrakı illik dövrlər üçün qüvvədədir)

Aprel 2024-cü ildə, MUBSŞ 18 saylı MHBS-nı, əsas diqqətin mənfəət və ya zərər Hesabatındakı yeniliklərə çəkməklə maliyyə hesabatların təqdimatı və açıqlamaları haqqında yeni standartı dərc edib. 18 saylı MHBS-da təqdim olunan əsas yeniliklərə aşağıdakılara aiddir:

- Mənfəət və ya zərər hesabatının quruluşuna;
- Cəmiyyətin maliyyə hesabatlarından kənarda dərc olunan müəyyən Mənfəət və ya Zərər fəaliyyət ölçüləri üçün tələb olunan açıqlamalara (rəhbərlik tərəfindən müəyyən olunan ölçülər);
- Ümumən maliyyə hesabatlarına və qeydlərinə tətbiq edilən təkmilləşdirilimiş birləşmə və bölünmə prinsiplərinə;

18 saylı MHBS, 1 saylı MUBS-nin bir çox prinsipləri limitli dəyişikliklərlə saxlayaraq, əvəz edəcək. 18 saylı MHBS maliyyə hesabatlarında maddələrin tanınmasına və ölçülməsinə təsir göstərməyəcək, lakin Cəmiyyətin "əməliyyat mənfəəti və ya zərəri" kimi təqdim etdiyi göstəriciləri dəyişə bilər. 18 saylı MHBS, 01 yanvar 2027-ci il və ya ondan sonra başlayan hesabat dövrləri üçün tətbiq olunacaq və müqayisəli məlumatlara da aiddir.

19 saylı MHBS İctimai hesabatlılığı olmayan törəmə müəssisələrin açıqlanmaları (09 may 2024-cü ildə dərc olunub və 01 yanvar 2027-ci il və ya ondan sonra başlayan illik dövrlər üçün qüvvəyə minir)

Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) törəmə müəssisələr üçün yeni MHBS Mühasibat Uçotu Standartını dərc etmişdir. 19 saylı MHBS, uyğun törəmə müəssisələrə azaldılmış açıqlanmalarla MHBS Mühasibat Uçotu Standartlarını istifadə etməyə icazə verir. 19 saylı MHBS-nin tətbiqi törəmə müəssisələrin maliyyə hesabatlarının hazırlanması ilə bağlı xərcləri azaldacaq, eyni zamanda onların maliyyə hesabatlarının istifadəçiləri üçün məlumatların faydalılığını qoruyub saxlayacaqdır.

Öz maliyyə hesabatları üçün MHBS Mühasibat Uçotu Standartlarını istifadə edən törəmə müəssisələr, onların istifadəçilərinin məlumat ehtiyacları ilə müqayisədə qeyri-mütənasib ola bilən açıqlanmalar təqdim edirlər.

19 saylı MHBS bu problemləri aşağıdakı şəkildə həll edəcəkdir:

- törəmə müəssisələrə həm ana şirkətin, həm də özlərinin maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarını təmin etmək imkanı yaratmaq üçün vahid mühasibat uçotunun tətbiqi;
- məlumatların açıqlanması tələblərinin azaldılması – MHBS 19 maliyyə hesabatlarının istifadəçilərinin ehtiyaclarına daha uyğun olan məlumatları açıqlamağa imkan verəcək.

2025-ci ilin avqustunda MUBSŞ 21 saylı MUBS – Xarici Valyuta Məzənnələrində Dəyişikliklərin Təsirləri (Hiperinflyasiya Təqdimat Valyutası) standartına Müəssisə hiperinflyasiya şəraitində təqdimat valyutasını necə müəyyənləşdirəcəyi və valyutanın dəyişmə qabiliyyəti olmadıqda xarici valyuta əməliyyatlarını necə qiymətləndirəcəyini izah etmək məqsədilə düzəlişlər etd. Müəssisə ölçmə tarixində başqa valyutaya dəyişdirilə bilməyən xarici valyutada əməliyyat və ya əməliyyat apardıqda təsirə məruz qalır. Düzəlişlər 01 yanvar 2027-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir, erkən tətbiqə icazə verilir.

Yuxarıda əksinə təsvir edilmədikcə, yeni standartlar və izahlar Rəhbərlik tərəfindən nəzərdən keçirilir və onların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsinin gözlənilmədiyinin qənaətinə gəlinir. Bu yeni standartların və izahların tələbləri bu maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilməmişdir. Rəhbərlik bu yeni standartların və izahların mümkün təsirini qiymətləndirmiş və onların tətbiqinin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməyini gözləmir. Bu standartlar müvafiq qüvvəyə minmə tarixlərindən etibarən tələb olunduğu kimi tətbiq ediləcəkdir.

7. Pul vəsaitləri və onların ekvivalentləri

Pul və pul vəsaitlərinin ekvivalentlərin qalıqları aşağıdakı kimidir:
Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

	2025	2024
Kassa	61 854,69	61 854,69
Bank hesablarında olan pul vəsaitləri	95 252,23	11 188,47
ƏDV deposit hesabında olan pul vəsaitləri		
	157 106,92	73 043,16
Bank hesablarında olan pul vəsaitlərindən:		
• Milli valyutada bank hesabları	25 253,92	59 110,33
• Xarici valyutalarda bank hesabları	69 998,31	13 932,83

7. Banklara qoyulmuş depozitlər

Banklara qoyulmuş depozitlərin qalıqları aşağıdakı kimidir:

	2025	2024
Banka qoyulmuş depozitlər	-	-
	-	-

8. Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər aşağıdakı kimidir:

	31.12.2025	31.12.2024
Müştəriyə verilmiş kreditlər	1 044 036,05	1 422 532,49
Çıxılsın: Gözlənilən kredit zərərləri üzrə ehtiyat	(338 718,94)	(755 965,56)
Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avanslar	705 317,11	666 566,93

2025-ci ilin avqustunda MUBSŞ 21 saylı MUBS – Xarici Valyuta Məzənnələrində Dəyişikliklərin Təsirləri (Hiperinflyasiya Təqdimat Valyutası) standartına Müəssisə hiperinflyasiya şəraitində təqdimat valyutasını necə müəyyənləşdirəcəyi və valyutanın dəyişmə qabiliyyəti olmadıqda xarici valyuta əməliyyatlarını necə qiymətləndirəcəyini izah etmək məqsədilə düzəlişlər etd. Müəssisə ölçmə tarixində başqa valyutaya dəyişdirilə bilməyən xarici valyutada əməliyyat və ya əməliyyat apardıqda təsirə məruz qalır. Düzəlişlər 01 yanvar 2027-ci il tarixində və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir, erkən tətbiqə icazə verilir.

Yuxarıda əksinə təsvir edilmədikcə, yeni standartlar və izahlar Rəhbərlik tərəfindən nəzərdən keçirilir və onların Cəmiyyətin maliyyə hesabatlarına əhəmiyyətli dərəcədə təsir göstərməsinin gözlənilmədiyinin qənaətinə gəlinir. Bu yeni standartların və izahların tələbləri bu maliyyə hesabatlarının hazırlanmasında tətbiq edilməmişdir. Rəhbərlik bu yeni standartların və izahların mümkün təsirini qiymətləndirmiş və onların tətbiqinin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməyini gözləmir. Bu standartlar müvafiq qüvvəyə minmə tarixlərindən etibarən tələb olunduğu kimi tətbiq ediləcəkdir.

7. Pul vəsaitləri və onların ekvivalentləri

Pul və pul vəsaitlərinin ekvivalentlərin qalıqları aşağıdakı kimidir:
Pul vəsaitləri və onların ekvivalentləri aşağıdakılardan ibarətdir:

	2025	2024
Kassa	61 854,69	61 854,69
Bank hesablarında olan pul vəsaitləri	95 252,23	11 188,47
ƏDV deposit hesabında olan pul vəsaitləri		
	157 106,92	73 043,16
Bank hesablarında olan pul vəsaitlərindən:		
• Milli valyutada bank hesabları	25 253,92	59 110,33
• Xarici valyutalarda bank hesabları	69 998,31	13 932,83

7. Banklara qoyulmuş depozitlər

Banklara qoyulmuş depozitlərin qalıqları aşağıdakı kimidir:

	2025	2024
Banka qoyulmuş depozitlər	-	-
	-	-

8. Müştərilərə verilmiş kreditlər

Müştərilərə verilmiş kreditlər aşağıdakı kimidir:

	31.12.2025	31.12.2024
Müştəriyə verilmiş kreditlər	1 044 036,05	1 422 532,49
Çıxılsın: Gözlənilən kredit zərərləri üzrə ehtiyat	(338 718,94)	(755 965,56)
Cəmi amortizasiya olunmuş dəyərdə müştərilərə verilmiş kreditlər və avanslar	705 317,11	666 566,93

31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan istehlak və biznes kreditləri üzrə təminat haqqında məlumat aşağıda göstərilir:

Girovla təmin edilmiş kreditlər	İstehlak kreditləri	Ümumi kreditlər
- zamin	118 661,14	118 661,14
- daşınar əmlak	3 553,48	3 553,48
- daşınmaz əmlak		
Cəmi müştərilərə verilən amortizasiya olunmuş dəyərlə ölçülən kreditlərin ümumi dəyəri (amortizasiya olunmuş dəyərlə ölçülən hər bir kredit kateqoriyası üzrə kredit riskini əks etdirən məbləğ)	122 214,62	122 214,62

31 dekabr 2024-cü il tarixinə müştərilərə verilmiş amortizasiya olunmuş dəyərdə qeydə alınan istehlak və biznes kreditləri üzrə təminat haqqında məlumat aşağıda göstərilir:

Girovla təmin edilmiş kreditlər	İstehlak kreditləri	Ümumi kreditlər
- zamin	3 949,00	3 949,00
- daşınar əmlak	2 867,74	2 867,74
- daşınmaz əmlak		
Cəmi müştərilərə verilən amortizasiya olunmuş dəyərlə ölçülən kreditlərin ümumi dəyəri (amortizasiya olunmuş dəyərlə ölçülən hər bir kredit kateqoriyası üzrə kredit riskini əks etdirən məbləğ)	6 816,74	6 816,74

Kredit portfelinin valyuta vahidləri üzrə bölgüsü:

	31.12.2025	31.12.2024
Azərbaycan manatı	1 189 188,58	1 715 473,01
ABŞ dolları	27 822,45	27 824,15
Cəmi müştərilərə verilmiş kreditlər	1 217 011,03	1 743 297,16

9. Əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər

Əsas vəsaitlərin balans dəyərindəki hərəkət aşağıdakı kimidir:

	Maşın avadanlıqlar	Nəqliyyat vasitələri	Yüksək Texnologiyalar	Digər əsas vəsaitlər	Cəmi
01.01.24 tarixə ilkin dəyər		49 300	9 392,14	26 745	85 437,14
Yığılmış amortizasiya		(44 215,49)	(3 606,40)	(17 264,36)	(65 086,25)
01.01.24 ilə balans dəyəri		5 084,51	5 785,74	(9 480,64)	20 350,89
Daxilolmalar					
Xaricolmalar					
Amortizasiya ayırmaları		(1 271,13)	(94,64)	(1 053,40)	(4 919,28)
Xaricolmalar üzrə yığılmış amortizasiya					
Daxilolmalar üzrə amortizasiya					
31.12.24 ilə ilkin dəyər		49 300	9 392,14	26 745	85 437,14
Yığılmış amortizasiya		(45 486,62)	(5 606,28)	(18 317,76)	(69 410,66)
31.12.24 ilə balans dəyəri		3 813,38	3 785,86	8 427,24	16 026,48
Daxilolmalar		25 000	869,66		25 869,66
Xaricolmalar					
Amortizasiya ayırmaları		(953,40)	(800,67)	(1 685,45)	(3 439,52)
Xaricolmalar üzrə yığılmış amortizasiya					
Daxilolmalar üzrə amortizasiya					
31.12.25 ilə ilkin dəyər		74 300	10 261,80	26 745	111 306,80
Yığılmış amortizasiya		(46 440,02)	(6 406,95)	(20 003,21)	(72 850,13)
31.12.25 ilə balans dəyəri		27 859,98	3 854,85	6 741,79	38 456,67

10. Aktivdən istifadə hüququ və icarə öhdəlikləri

Cəmiyyət ofis sahəsi icarəyə götürür. İcarə müqaviləsi uzun müddətə bağlanır, lakin bu müddətin uzadılması hüququnu da nəzərdə tutur. Cəmiyyətin razılığına əsasən müqavilə müddəti uzadılır. Müqavilələrə icarə və qeyri-icarə komponentləri daxil ola bilər. Cəmiyyət icarə komponentlərini qeyri-icarə komponentlərindən ayırmaq əvəzinə, onları vahid icarə komponenti kimi uçota almaq üsulunu seçmişdir. İcarə şərtləri fərdi qaydada nəzərdən keçirilir və icarə müqavilələrinə bir çox fərqli şərtlər daxil edilir. İcarə müqavilələrində icarəyə verənin icarə predmeti olan aktivlər ilə bağlı təminat hüququndan başqa heç bir xüsusi şərt nəzərdə tutulmur. İcarə predmeti olan aktivlər kreditlər üzrə təminat kimi istifadə edilə bilməz.

Cəmiyyətin icarə müqavilələrinə icarə müddətinin uzadılması və ləğv edilməsi hüquqları daxil edilmişdir. Bu hüquqlar Cəmiyyətin fəaliyyətində istifadə olunan aktivlərin idarə olunmasında əməliyyat çevikliyinin artırılması üçün tətbiq olunur. İcarə müddətinin uzadılma və ləğvetmə hüquqlarının əksəriyyəti Cəmiyyət və müvafiq icarəyə verən tərəfindən icra edilə bilər.

01 fevral 2025-ci il tarixindən etibarən icarə müqavilələri icarəyə götürülmüş aktivin Cəmiyyətin istifadəsi üçün hazır olduğu tarixdən başlayaraq müvafiq öhdəliklə birlikdə aktivdən istifadə hüququ kimi tanınır.

Aktivdən istifadə hüququ icarə predmeti olan aktivlərin növünə görə təhlili aşağıda göstərilir:

Ofis sahələri	90
İl üzrə əlavələr Aktivdən istifadə hüquqi üzrə köhnəlmə xərci	-
31.12.2024-cü il tarixinə balans dəyəri	-
İl üzrə əlavələr Modifikasiya Aktivdən istifadə hüquqi üzrə köhnəlmə xərci	-
Ofis sahələri	90
İl üzrə Aktivdən istifadə hüquqi üzrə köhnəlmə xərci	-
31.12.2025-ci il tarixinə balans dəyəri	90

İlin əvvəli və ilin sonuna icarə öhdəlikləri məbləğinin maliyyələşdirmə fəaliyyətində müvafiq nağd və nağdsız dəyişikliklərlə uyğunlaşdırılması aşağıdaki cədvəllə göstərilir:

01 yanvar 2024-cü il tarixinə balans dəyəri	-
İl üzrə əlavələr İcarə öhdəlikləri üzrə hesablanan faiz xərci İcarə öhdəlikləri üzrə hesablanan faiz xərcinin ödənilməsi İcarə öhdəlikləri üzrə əsas məbləğin ödənilməsi	- - -
31.12.2024-cü il tarixinə balans dəyəri	-
Ofis sahələri	-
İl üzrə əlavələr İcarə öhdəlikləri üzrə hesablanan faiz xərci İcarə öhdəlikləri üzrə hesablanan faiz xərcinin ödənilməsi İcarə öhdəlikləri üzrə əsas məbləğin ödənilməsi	- - - - -
31.12.2025-ci il tarixinə balans dəyəri	-

31 dekabr 2025-ci il tarixinə gələcək minimum icarə ödənişləri:

	1 il ərzində	1 ildən çox	Cəmi
Minimum icarə ödənişləri	19 350	-	19 350
Maliyyə xərcləri	-	-	-
Xalis dəyər	19 350	-	19 350

10. Aktivdən istifadə hüququ və icarə öhdəlikləri (davamı)
31 dekabr 2024-cü il tarixinə gələcək minimum icarə ödənişləri.

	1 il ərzində	1 ildən çox	Cəmi
Minimum icarə ödənişləri	49 500	-	49 500
Maliyyə xərcləri	-	-	
Xalis dəyər	49 500	-	49 500

Tanınmış icarə öhdəlikləri ödəniş müddəti üzrə aşağıdakı kimi təsnif edilir:

	31.12.2025	31.12.2024
Qısamüddətli hissə	19 350	49 500
Uzunmüddətli hissə	-	-
Cəmi icarə öhdəlikləri	19 350	49 500

11. Satılanadək saxlanılan uzunmüddətli aktivlər

Satılanadək saxlanılan uzunmüddətli aktivlər aşağıdakılardan ibarətdir:

	31.12.2025	31.12.2024
Ödənilməmiş borclar müqabilində götürülən daşınar əmlak	186 155,51	-
Ödənilməmiş borclar müqabilində götürülən daşınmaz əmlak	-	-
Cəmi satılanadək saxlanılan uzunmüddətli aktivlər	186 155,51	-

2025 və 2024-cü illər ərzində müvafiq olaraq aşağıdakı aktivin silinməsi reallaşmışdır.

	31.12.2025	31.12.2024
Əlavələr	-	-
Satış	-	-
İlin sonuna qalıq	-	-

Rəhbərliyin mülahizələrinə əsasən satış üçün saxlanılan aktivlərin bazar dəyəri onların qalıq dəyərinə bərabərdir. Rəhbərlik balansa alınmış girovları bir il ərzində satmağı planlaşdırır.

12. Digər aktivlər

Digər aktivlər aşağıdakılardan ibarətdir:

	31.12.2025	31.12.2024
Qabaqcadan ödənilmiş xərclər		
Aktivlərin alışı üçün qabaqcadan ödəmələr	150 418,49	210 000,00
Dövlət büdcəsinə qabaqcadan ödəmələr	56,82	7 615,00
Digər aktivlər	4 000,0	480 876,61
Cəmi digər aktivlər	154 475,31	698 491,61

13. Nizamnamə kapitalı

Cəmiyyətin 31 dekabr 2024-cü il tarixlərinə elan edilmiş nizamnamə kapitalı müvafiq olaraq 722.000,00 manat təşkil etmişdir, 31.12.2025-ci il tarixə Cəmiyyətin nizamnamə kapitalı 80.000,00 manat artırılıb 802.000,00 manata çatdırılmışdır.

14. Kapital ehtiyatları, bölüşdürülmımiş mənfəət, ödənilməmiş zərər.

	2025	2024
Bölüşdürülməmiş mənfəət, ödənilməmiş zərər		
- Hesabat dövrünün xalis mənfəəti	-	-
- Əvvəlki illər üzrə bölüşdürülməmiş mənfəət	254 437,85	405 204,91
Əsas gəlir üçün təsisçilərin illik payına düşən xalis mənfəət	**254 437,85**	**405 204,91**

Kapital ehtiyatları təsnifatlaşdırılmamışdır.

15. Müddətli borc öhdəlikləri

Borc vəsaitlərinin qalıqları aşağıdakılardan ibarətdir:

	2025-ci il	2024-cü il
"Respublika Bank" ASC-dən alınmış kredit borcu	-	293 845,41
"Respublika Bank" ASC-dən alınmış uzunmüddətli borc vəsaiti	-	-
Cəmi borc vəsaitləri	-	293 845,41

01 yanvar 2025-ci il	
Yeni alınan kreditlər	-
Ödənilmiş əsas məbləğ	-
Ödənilmiş faiz məbləği	-
Faiz xərci	-
31.12.2025-ci il	
Yeni alınan kreditlər	-
Ödənilmiş əsas məbləğ	-
Ödənilmiş faiz məbləği	-
Faiz xərci	
31.12.2024-cü il	-

16. Əlaqəli tərəflərdən alınmış borc vəsaitləri

Əlaqəli tərəflərdən alınmış borc vəsaitlərinin qalıqları aşağıdakılardan ibarətdir:

	Borc məbləği	Hesablanmış faiz	31 dekabr 2025-ci il tarixinə ümumi borc
Əlaqəli tərəflərdən xarici valyutada alınmış uzunmüddətli borclar – Təsisçi	70,13	-	70,13
Cəmi əlaqəli tərəflərdən alınmış borc vəsaitləri	70,13	-	70,13

	Borc məbləği	Hesablanmış faiz	31 dekabr 2024-cü il tarixinə ümumi borc
Əlaqəli tərəflərdən xarici valyutada alınmış uzunmüddətli borclar – Təsisçi	-	--	
Cəmi əlaqəli tərəflərdən alınmış borc vəsaitləri	-	-	-

01 yanvar 2025-ci il	
Yeni alınan kreditlər	-
Ödənilmiş əsas məbləğ	-
Bağışlanan borc məbləği	-
Ödənilmiş faiz məbləği	-
Faiz xərci	-
31.12.2025-ci il	
01.01.2024-cü il	
Yeni alınan kreditlər	-
Ödənilmiş əsas məbləğ	-
Bağışlanan borc məbləği	-
Ödənilmiş faiz məbləği	-
Faiz xərci	-
31.12.2024-cü il	-

17. Buraxılmış borc qiymətli kağızları

Buraxılmış borc qiymətli kağızlarının qalıqları aşağıdakılardan ibarətdir:

	Borc məbləği	Hesablanmış faiz	31 dekabr 2025-ci il tarixinə ümumi borc
Qiymətli kağızların – istiqrazların emissiyası	-	-	-
Cəmi buraxılmış borc qiymətli kağızları			

	Borc məbləği	Hesablanmış faiz	31 dekabr 2024-cü il tarixinə ümumi borc
Qiymətli kağızların – istiqrazların emissiyası	-	-	-
Cəmi buraxılmış borc qiymətli kağızları	-	-	-

	31.12.2025	31.12.2024
İlin əvvəlinə qalıq		
Daxilolmalar	-	-
Ödənişlər	-	-
Faiz xərcləri	-	-
İlin sonuna qalıq	-	

18. Digər öhdəliklər

Digər öhdəliklər aşağıdakılardan ibarətdir:

	31.12.2025	31.12.2024
İlin əvvəlinə qalıq		
Rezident şəxslərə qarşı öhdəlik (milli valyutada)		
Gəlir vergisi öhdəlikləri		
Vergilər üzrə öhdəliklər	-	6 317,08
Digər ödəniləcək vəsaitlər (milli valyutada)		
Rezident şəxslərə qarşı öhdəlik (xarici valyutada)		
Digər ödəniləcək vəsaitlər (xarici valyutada)		
Digər öhdəliklər	2 365,05	21 152,67
Cəmi digər öhdəliklər	2 365,05	27 469,75

19. Faiz gəlirləri və xərcləri

Faiz gəlirləri və xərcləri aşağıdakılardan ibarətdir:

	31.12.2025	31.12.2024
Faiz gəlirləri		
İstehlak kreditləri üzrə faiz gəlirləri	183 261,79	327 634,72
Bank depozitlərindən faiz gəlirləri		
Vaxtı keçmiş kreditlər üzrə faiz gəlirləri		
Cəmi faiz gəlirləri	183 261,79	327 634,72
Faiz xərcləri		
Repo razılaşmaları üzrə faiz xərcləri	463 622,68	677 131,03
İstiqrazlar üzrə faiz xərcləri	-	-
Əlaqəli tərəflər üzrə faiz xərcləri	-	-
Maliyyə institutları üzrə faiz xərcləri	-	-
Cəmi faiz xərcləri	463 622,68	677 131,03
Cəmi faiz gəliri	-	-

20. Ümumi və inzibati xərclər

Ümumi və inzibati xərclər aşağıdakılardan ibarət olmuşdur:

	31.12.2025	31.12.2024
Digər xidmət xərcləri	23 658,46	52 188,70
Rabitə xərcləri	4 412,51	4 102,16
Digər vergi xərcləri	272,42	181,89
Yanacaq xərcləri	5 382,30	5 927,70
Amortizasiya ayırmaları	3 439,47	6 190,41
Təmir və servis xərcləri		77,22
Reklam və marketinq xərcləri	102,00	200,00
Kommunal xərcləri	4 521,61	3 542,25
Sığorta xərcləri	16 179,26	4 284,28
İcarə xərcləri	19 350,00	49 500,00
Digər xərclər	19 638,02	18 354,38
Ümumi və inzibati xərclər	96 950,05	144 548,99

21. Digər gəlirlər, xalis

Digər gəlirlər/ (xərclər) aşağıda təqdim olunur:

	31.12.2025	31.12.2024
Cərimələr üzrə gəlirlər		
Əlaqəli tərəfdən alınmış borcun silinməsindən yaranan gəlir		
Satış üçün saxlanılan aktivlərin satışından gəlirlər		
Əmlak və avadanlığın silinməsindən zərərlər		
Digər gəlirlər	14 083,81	1 866,00
Cəmi digər gəlirlər, xalis	14 083,81	1 866,00

22. Haqq və komissiya xərcləri, xalis

Haqq və komissiya gəlir və xərcləri aşağıdakılardan ibarətdir:

	31.12.2025	31.12.2024
Müxbir hesablar üzrə komissiya xərci		
Bank komissiya xərcləri	1 863,79	1 917,62

Satış üçün saxlanılan aktivlərin satışından gəlirlər		
Haqq və komissiya gəlirləri		
Digər əməliyyatlar üzrə haqq və komissiya xərcləri		
Haqq və komissiya gəlirləri, xalis	1 863,79	1 917,62

23. İşçi heyəti üzrə xərclər

İşçi heyəti üzrə xərclər aşağıdakı kimi olmuşdur:

	31.12.2025	31.12.2024
Hesablanmış əməkhaqqı və mükafatlar	136 943,75	135 321,03
Sosial sığorta haqları	21 434,00	19 422,56
İcbari tibbi sığorta haqları	2 739,61	2 706,42
İşsizlik sığortası haqları	684,74	676,60
Cəmi işçi heyəti üzrə hesablaşmalar, xalis	161 802,10	158 126,61

24. Mənfəət vergisi

Cəmiyyət vergiləri Azərbaycan Respublikasının vergi qanunvericiliyinə əsasən hazırlanmış vergi hesabatlarınavə qeydlərinə əsasən hesablayır və bu hesablamalar Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarındanfərqlənə bilər.

Cəmiyyət bəzi xərclərin vergi mənfəətindən azaldılmamasına və bəzi gəlirlərin vergidən azad olunmasına görə bəzi daimi vergi fərqləri yaradır.

Təxirə salınmış vergilər maliyyə hesabatlarında göstərilən aktiv və öhdəliklərin qalıq dəyəri ilə onların vergi hesabatındakı qalıq dəyərləri arasındakı müvəqqəti fərqlərin xalis vergi təsirini əks etdirir. 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə müvəqqəti fərqlər əsasən gəlir və xərclərin tanınmasındakı fərqlərdən yaranmışdır.

25. Maliyyə risklərinin idarə edilməsi

Risklərin idarə edilməsi maliyyə (kredit, bazar, coğrafi, valyuta, likvidlik və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinin idarə edilməsinin əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd burisklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Kredit riski

Maliyyə sənədləri ilə əməliyyatlar üzrə tərəflərdən biri müqavilə öhdəliyini yerinə yetirmədikdə və bu, digər tərəfin maliyyə zərəri çəkməsinə səbəb olduqda, Cəmiyyət kredit riskinə məruz qalır. Kredit riski Cəmiyyətin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da

maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır. Cəmiyyətin məruz qaldığı kredit riskinin maksimal səviyyəsi maliyyə vəziyyəti haqqında hesabatda maliyyə aktivlərinin balans dəyərində əks etdirilir.

Kredit riskin idarəedilməsi

Kredit riski Cəmiyyətin biznesi üçün yeganə əhəmiyyətli riskdir. Buna görə, rəhbərlik kredit riskinin idarə edilməsinə xüsusi diqqət yetirir. Kredit riskinin bazar şəraitindən, gələcək pul axınlarından və zamandan asılı olaraq dəyişməsinə görə risklərin idarə edilməsi məqsədilə qiymətləndirilməsi mürəkkəb prosesdir və modellərin istifadəsini tələb edir. Aktivlər portfeli üzrə kredit riskinin qiymətləndirilməsi defoltun baş vermə ehtimalına, müvafiq zərər əmsallarına və kontragentlər arasında defolt vəziyyətlərinin korrelyasiyası ilə bağlı əlavə təxminləri tələb edir.

Limitlər

Cəmiyyət məruz qaldığı kredit riskinə bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə limitlər müəyyən etməklə nəzarət edir. Belə risklərə mütəmadi olaraq nəzarət edilir və limitlərə ildə bir dəfədən az olmayaraq yenidən baxılır. Müştərilərlə iş üzrə kredit mütəxəssisləri tərəfindən yaradılmış kredit ərizələri kredit limitinin təsdiqlənməsi üçün müvafiq kredit komitəsinə təqdim edilir. Kredit riski, həmçinin fiziki şəxslərin təminat və zəmanətlərini almaqla idarə olunur. Kredit riskinin monitorinqi məqsədləri üçün kredit departamentinin mütəxəssisləri tərəfindən müntəzəm olaraq müştərilərin fəaliyyəti və maliyyə göstəricilərinin təhlili əsasında hesabatlar hazırlanır.

Ödəmə qabiliyyəti aşağı olan müştərilər ilə bağlı əhəmiyyətli risklər haqqında məlumat rəhbərliyə təqdim olunur və onun tərəfindən təhlil edilir.

Gözlənilən kredit zərərlərinin (GKZ) qiymətləndirilməsi

GKZ gələcək pul axınlarındakı azalmaların ehtimal ilə ölçülmüş cari dəyərinin qiymətləndirilməsidir (yəni, müəyyən müddət ərzində çəki qismində müvafiq defolt riskləri istifadə olunmaqla kredit zərərlərinin orta çəkisidir). GKZ-nin qiymətləndirilməsi obyektiv olub, mümkün nəticələrin miqyasını qiymətləndirməklə müəyyən edilir. GKZ-nin qiymətləndirilməsi Cəmiyyət tərəfindən istifadə olunan dörd parametr əsasında həyata keçirilir: defolt ehtimalı ("DE"), defolta məruz qalan dəyər ("DMQD"), defolt baş verəcəyi halda itirilməsi gözlənilən məbləğ ("DHZ") və diskont dərəcəsi ("DR").

DMQD - hesabat dövründən sonra kredit qalığının məbləğində gözlənilən dəyişiklikləri nəzərə alaraq, gələcək defolt tarixində kredit qalığının qiymətləndirilməsi, o cümlədən əsas borc və faizlərin ödənilməsi və kredit öhdəlikləri üzrə vəsaitlərin gözlənilən istifadəsidir. DE - müəyyən müddət ərzində defoltun baş vermə ehtimalının qiymətləndirilməsidir.

DHZ - defolt baş verdiyi zaman yaranan zərərin qiymətləndirilməsidir. Bu, müqavilə üzrə ödənilməli gələcək pul axınları ilə borcalanın, həmçinin təminatın satışından əldə etməsi gözlənilən pul axınları arasındakı fərqə əsaslanır. Adətən bu göstərici DMQD in faiz nisbəti kimi ifadə edilir. Gözlənilən zərərlər hesabat dövrünün sonuna cari dəyərə diskontlaşdırılır. Diskont dərəcəsi maliyyə aləti üzrə ilkin effektiv faiz dərəcəsi və ya onun təxmini dəyəridir.

GKZ-nin hesablanması üçün Cəmiyyət 2-ci mərhələdəki risklər üçün bütöv müddət üzrə (*bütöv müddət üzrə GKZ*) və 1-ci mərhələdəki kreditlər üçün bir illik müddət üzrə (*12 aylıq GKZ*) defolt ehtimalı müəyyən etməlidir. 9 saylı MHBS nin tətbiqi ilə bağlı olaraq təxmini yanaşmadan istifadə edilmişdir.

Ümumi portfel üçün vaxtı qecikdirilməmiş, 30 günədək gecikmədə olan kreditlər, 30-60 gün gecikmədə olan kreditlər, 60-90 gün gecikmədə olan kreditlər və defolt (vaxtı keçmiş günlər >90) arasında keçidləri modelləşdirmək üçün miqrasiya matrislərindən istifadə edilmişdir.

GKZ-nin hesablanması zamanı 9 saylı MHBS-nin əsas tələblərindən biri gələcək proqnoz məlumatlarının nəzərə alınmasıdır. Adətən bu, iqtisadiyyatın gözlənilən inkişafı (makroiqtisadi məlumat) ilə əlaqədar təxminlərə düzəlişin edilməsini tələb edir.

Bütöv müddət üzrə defolt ehtimalına belə düzəlişin əlavə edilməsinin nisbətən asan və əlverişli üsulu seçilmiş makroiqtisadi dəyişənlər ilə müqayisədə əvvəlki dövrlərdə baş verən defolt dərəcələrinin davranışını izah edən reqressiya modellərinin istifadə edilməsidir. Bu yanaşma (verilmiş portfel üçün statistik baxımından uyğun olduğu halda) marjinal DE əyrilərini müəyyən zaman anına uyğunlaşdırmaq üçün (mümkün səviyyəyə qədər) istifadə olunur.

Defolt ehtimalının qiymətləndirilməsi məqsədilə Cəmiyyət aşağıdakı şərtlərdən biri və ya bir neçəsinin baş verdiyi təqdirdə defolt vəziyyətinin yarandığını hesab edir:

- borcalanın müqavilə ilə ödənişləri 90 gündən artıq gecikdirildikdə;
- borcalan aşağıda göstərilən gözlənilən müflis olma meyarlarına cavab verdikdə:
- Cəmiyyət borcunu restrukturizasiya etmək məcburiyyətində qaldıqda;
- borcalan vəfat etdikdə;
- borcalan müflis olduqda və ya borcalanın müflis olma ehtimalı yüksək olduqda;
- kreditlər çəkilmiş kredit zərərlərini əks etdirən əhəmiyyətli dərəcədə güzəştlə alındıqda və ya verildikdə.

Məlumatların açıqlanması məqsədilə Cəmiyyət defolt anlayışını dəyərsizləşmiş aktivlər anlayışına tam uyğunlaşdırmışdır. Yuxarıda qeyd olunan defolt anlayışı Cəmiyyətin bütün maliyyə aktivlərinə tətbiq edilir. İlkin tanınma vaxtından etibarən kredit riskinin əhəmiyyətli dərəcədə artmasını qiymətləndirilməsi (KRƏA) həm fərdi qaydada, həm də portfel əsasında həyata keçirilir.

Rəhbərlik kredit riskinin əhəmiyyətli dərəcədə artması faktının müəyyən edilməsi üçün istifadə edilən meyarların uyğunluğunu müntəzəm olaraq yoxlayır və təhlil edir. Maliyyə aktivlərinin ödənişi 30 gündən artıq gecikdirildiyi halda, ilkin tanınma vaxtından kredit riskinin əhəmiyyətli dərəcədə artması fərziyyəsi təkzib edilmir.

Aşağıdakı keyfiyyət, kəmiyyət və ya məhdudlaşdırıcı meyarlardan biri və ya bir neçəsi baş verdiyi təqdirdə, Cəmiyyət maliyyə aləti üzrə kredit riskinin əhəmiyyətli dərəcədə artdığını hesab edir:

- ödəniş müddəti 30 gün gecikdirildikdə;
- restrukturizasiya olunduqda;
- kredit daxili nəzarət proseduruna uyğun olaraq "nəzarət siyahısına" daxil edildikdə.

Hazırkı maliyyə hesabatlarında tanınmış GKZ səviyyəsi ilkin tanınmadan sonra borcalanın kredit riskinin əhəmiyyətli dərəcədə dəyişməsindən asılıdır. Bu yanaşma gözlənilən kredit zərərlərinin qiymətləndirilməsi üçün üç mərhələli modelə əsaslanır. 1-ci mərhələ -ilkin tanınma zamanı dəyərsizləşməmiş və həmin vaxtdan kredit riski əhəmiyyətli dərəcədə artmamış maliyyə aktivləri üzrə 12 aylıq GKZ əsasında dəyərsizləşmə ehtiyatı tanınır. İkin tanınma vaxtından etibarən kredit riski əhəmiyyətli dərəcədə artmış, lakin hələ dəyərsizləşmiş maliyyə aləti 2-ci mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır.

Maliyyə aləti dəyərsizləşdikdə 3-cü mərhələyə köçürülür və dəyərsizləşmə ehtiyatı bütöv müddət üçün gözlənilən kredit zərərləri əsasında tanınır.

Aktivin 3-cü mərhələyə köçürülməsi nəticəsində Cəmiyyət faiz gəlirini ümumi balans dəyəri əsasında tanımağı dayandırır və faiz gəlirini hesablayarkən gözlənilən kredit zərərləri çıxılmaqla, balans dəyərinə aktivin effektiv faiz dərəcəsini tətbiq edir.

Kredit riskinin əhəmiyyətli dərəcədə artması meyarı artıq yerinə yetirilmədikdə, maliyyə aləti 1-ci mərhələyə geri köçürülür. Əgər kredit qalığı kredit riskinin əhəmiyyətli artması nəticəsində 2-ci mərhələyə köçürülmüşdürsə, Cəmiyyət həmin kredit riskinin aktuallığının saxlanması və ya dəyişməsindən əmin olmaq üçün ona nəzarət edir.

Qiymətləndirmə portfel əsasında aparıldıqda Cəmiyyət risk mərhələlərini müəyyən edir və zərər üzrə ehtiyatları ümumi şəkildə hesablayır. Cəmiyyət kredit portfelini kredit riskinin ümumi xüsusiyyətləri əsasında müəyyən edilmiş seqmentlər əsasında elə şəkildə təhlil edir ki, qrup daxilində kredit portfelləri eyni və ya analoji risklərə malik olsunlar.

Əsas ümumi kredit xüsusiyyətlərinə aşağıdakılar daxildir: müştərinin növü (məsələn, topdansatış və ya pərakəndə), məhsulun növü, kredit riskinin reytinqi, ilkin tanınma tarixi, ödəmə müddətinədək qalan tarix, təminatın keyfiyyəti və kredit məbləğinin təminatın dəyərinə nisbəti (KTN). Müxtəlif seqmentlər, həmçinin DE və DHZ kimi kredit riski parametlərindəki fərqləri əks etdirilir. Kredit departamenti müntəzəm olaraq qruplar üzrə bölgünün uyğunluğunu yoxlayır və təhlil edir.

Ümumiyyətlə, GKZ aşağıdakı kredit riski parametrlərinin hasilinə bərabərdir: effektiv faiz dərəcəsindən istifadə etməklə cari dəyərə diskontlaşdırılan DMQD, DE və DHZ. GKZ hər bir fərdi kredit qalığını və ya ümumi seqmentin bütöv müddəti ərzində hər bir növbəti il üçün kredit riski parametrlərini proqnozlaşdırmaqla müəyyən edilir.

Bu üç komponentin hasili tapılır və bərpa ehtimalını (yəni, maliyyə aktivinin əvvəlki ayda ödənilməsi və ya defolt olması) nəzərə alaraq onlara düzəliş edilir. Bu, hər bir gələcək dövr üçün GKZ-nin hesablanmasını effektiv şəkildə təmin edir və sonradan hesabat tarixinə geri diskontlaşdırılaraq toplanır. GKZ-nin hesablanması üçün istifadə edilən diskont dərəcəsi ilkin effektiv faiz dərəcəsi və ya onun təxmini dəyəridir.

Maksimum məruz qalma

Cəmiyyətin kredit riskinə maksimum məruz qalması əhəmiyyətli dərəcədə dəyişir və həm fərdi risklərdən, həm də ümumi bazar iqtisadiyyatı risklərindən asılıdır.

Coğrafi konsentrasiya

2025-ci ildə Cəmiyyətin fəaliyyəti Azərbaycan respublikası ərazisində həyata keçirilmişdir.

Bazar riski

Cəmiyyət bazar risklərinə məruz qalır. Bazar riskləri bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz dərəcəsi və valyutalar üzrə açıq mövqelər ilə əlaqədar yaranır. Cəmiyyətin rəhbərliyi qəbul edilə bilən risklərin səviyyəsi üzrə limitlər müəyyən edir və bu limitlərə mütəmadi olaraq nəzarət edir. Lakin, belə yanaşmanın tətbiqi bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verəcəyi halda, bu limitlərdən artıq zərərlərin yaranmasının qarşısını almır.

Faiz dərəcəsi riski

Faiz dərcəsi risqi "risk göstəricisinin ehtimal edilən mümkün dəyişməsi" üsulu ilə hesablanmış və faizlərin dəyişməsinə Cəmiyyət həssaslıqla yanaşır. Bu dəyişikliklərin həddi rəhbərlik tərəfindən təyin edilir.

Likvidlik riski

Likvidlik riski maliyyə öhdəliklərindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində Cəmiyyətin çətinliklərlə üzləşəcəyi riskdir. Buraya faktiki olaraq ödəmə vaxtı çatmış maliyyə alətləri üzrə digər maliyyə öhdəliklərini yerinə yetirmək üçün kifayət qədər vəsaitlərin mövcud olması aiddir. Likvidlik riski aktivlər üzrə əməliyyatların yerinə yetirilmə müddətinin öhdəliklər üzrə əməliyyatların ödəmə müddətləri ilə uzlaşmadığı hallarda ortaya çıxır.

Cəmiyyətin Rəhbərliyinin fikrincə aktiv və öhdəliklərin ödəmə müddətlərinin və faiz dərəcələrinin uyğunluğu və nəzarət olunan uyğunsuzluğu maliyyə təşkilatlarının idarə olunması üçün əsas amillərdir.

Likvidlik risklərinin idarə edilməsi məqsədilə, Cəmiyyət aktiv/ öhdəliklərin idarə edilməsi prosesinin bir hissəsi

kimi müştərilərin və bankların əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitlərinin hərəkətinə hər gün nəzarət edir. Onlar həmçinin öhdəlik bazasının diversifikasiya riski üzrə parametrlər müəyyən edir. Cəmiyyətin likvidlik siyasəti aşağıdakıları özündə əks etdirir:

- Pul vəsaitləri hərəkətinin proqnozlaşdırılması və müxtəlif vaxt çərçivələrində likvidliyin təmin edilməsi üçün lazımi likvid aktivlərin səviyyəsinin saxlanması;
- Cəmiyyətin strateji məqsədlərinə uyğun olan maliyyələşdirmə planının hazırlanması;
- Müxtəlif maliyyələşdirmə mənbələrinin saxlanması və bununla, Cəmiyyətin yerli və xarici mənbələrdən borc almaq imkanlarının artırılması;
- Yüksək likvidli və yüksək keyfiyyətli aktivlərin saxlanması;
- Məhsul bazasının müəyyən vaxt çərçivəsində mövcud maliyyələşdirmə mənbələrinə uyğunlaşdırılması; və
- Müəyyən vaxt çərçivəsində aktiv və öhdəlik strukturunun davamlı monitorinqinin aparılması.

26. Kapitalın idarə olunması

Kapitalın idarə olunmasında Cəmiyyətin məqsədi Mərkəzi Bankın müəyyən etdiyi (i) kapitala dair minimal tələblərə riayət etmək (ii) Cəmiyyətin fəaliyyətinin fasiləsizliyini təmin etmək və (iii) biznesin dəstəklənməsi və səhmdar dəyərinin artırılması məqsədilə optimal kapital bazasının saxlamaqdan ibarətdir. Kredit müqavilələrində kapitalın adekvatlığı tələbləri ilə bağlı xüsusi maliyyə şərtləri nəzərdə tutulmamışdır.

27. Təəhhüdlər və şərti öhdəliklər

Məhkəmə prosesləri

Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Cəmiyyətə qarşı irəli sürülə biləcək iddialarla əlaqədar Cəmiyyətin rəhbərliyi öz təxminlərinə, eləcə də daxili və kənar peşəkarların məsləhətlərinə əsasən hesab edir ki, bu iddialarla bağlı heç bir əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq hazırkı maliyyə hesabatlarında zərərlərin ödənilməsi üçün hər hansı ehtiyat yaradılmamışdır.

Vergi prosesi

Azərbaycanın vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Cəmiyyətin əməliyyatları və fəaliyyəti ilə bağlı vergi qanunvericiliyinə dair rəhbərliyin mövqeləri müvafiq vergi orqanları tərəfindən mübahisələndirilə bilər.

Azərbaycan Respublikasında cərəyan edən son hadisələr göstərir ki, vergi orqanları qanunvericiliyi şərh edərkən və vergilərin məbləğini müəyyənləşdirərkən daha sərt mövqe nümayiş etdirə bilər və keçmişdə etiraz edilməyən əməliyyat və fəaliyyətlərə yenidən baxıla bilər. Bunun nəticəsində, Cəmiyyətə qarşı böyük məbləğdə əlavə vergilər, cərimələr və faizlər hesablana bilər.

Vergi yoxlamaları yoxlamanın keçirildiyi il də daxil olmaqla, vergi ödəyicisinin son üç təqvim ilindən çox olmayan fəaliyyətini əhatə edə bilər. Müəyyən hallarda yoxlama daha artıq dövrləri əhatə edə bilər.

28. Maliyyə alətlərinin ədalətli dəyəri

Ədalətli dəyər, məcburi satış və ya ləğv etmə halları istisna olmaqla, maraqlı tərəflər arasında cari əməliyyat zamanı maliyyə alətinin mübadilə edilə bildiyi məbləği əks etdirir və ən yaxşı olaraq aktiv bazar qiyməti ilə təsdiqlənir.

Maliyyə alətlərinin təxmin edilən ədalətli dəyəri Cəmiyyət tərəfindən mövcud bazar məlumatlarından (əgər mövcud olarsa) və müvafiq qiymətləndirmə metodlarından istifadə etməklə müəyyən edilmişdir. Lakin, təxmin edilən ədalətli dəyərin müəyyən edilməsi üçün bazar məlumatlarını şərh edərkən peşəkar mülahizələr irəli sürmək tələb edilir.

Azərbaycan Respublikasında inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas xüsusiyyətlər müşahidə olunmaqdadır, lakin iqtisadi şərtlər maliyyə bazarlarında aktivliyin həcmini məhdudlaşdırmaqda davam edir. Bazar qiymətləri köhnəlmiş ola bilər və ya aşağı qiymətlərlə satışın dəyərini əks etdirə bilər və bu səbəbdən maliyyə alətlərinin ədalətli dəyərini əks etdirməyə bilər. Maliyyə alətlərinin ədalətli dəyərini müəyyən edərkən Rəhbərlik bütün mövcud bazar məlumatlarından istifadə edir.

Cəmiyyət müəyyən qiymətləndirmə üsulları ilə maliyyə alətlərinin ədalətli dəyərini açıqlamaq üçün aşağıdakı qiymətləndirmə səviyyələrindən istifadə edir:

Səviyyə 1: Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin (ictimai satışa çıxarılan törəmələr, ticarət və satıla bilən qiymətli kağızlar və s.) ədalətli dəyəri hesabat dövrünün sonunda bazar qiymətlərinə əsaslanır. Cəmiyyət tərəfindən saxlanılan maliyyə aktivləri üçün istifadə olunan bazar qiyməti cari təklif qiymətini əks etdirir. Bu alətlər 1-ci səviyyəyə daxil edilir.

Səviyyə 2: Fəal bazarda alınıb-satıla bilməyən maliyyə alətlərinin (hesabdan əlavə törəmələr) ədalətli dəyəri müəssisənin təxminlərinə daha az etibar edərək və mümkün qədər müşahidə edilən bazar məlumatlarına əsaslanan qiymətləndirmə üsullarından istifadə etməklə müəyyən edilir. Ədalətli dəyər aləti tələb olunan bütün əhəmiyyətli müşahidələr mövcuddursa, alət 2-ci səviyyəyə aid edilir.

Səviyyə 3: Bir və ya daha çox əhəmiyyətli amillər müşahidə oluna bilən bazar məlumatlarına əsaslana bilmirsə, bu maliyyə aləti 3-cü səviyyəyə aid edilir. Bu hal bazara çıxarılmamış qiymətli kağızlar üçün nəzərdə tutulur.

30. Müqayisəli məlumatların yenidən təqdim edilməsi

31 dekabr 2025-ci il tarixində bitən il üçün maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik 31 dekabr 2024-cü il tarixində bitən il üçün maliyyə hesabatlarında tanınan müştərilərə verilən kreditlər üzrə gözlənilən kredit zərərləri üçün ehtiyatın (GKZ) 9 saylı MHBS - Maliyyə Alətləri tələblərinə uyğun olaraq ölçülməsini müəyyən etdi. Xüsusilə, gözlənilən kredit zərərləri üçün ehtiyata nəzarət olundu.

"Bank Olmayan Kredit Təşkilatı İDK" MMC
direktoru: Nuri Fatimə Məmmədbağır qızı

AUDİTOR RƏYİ

AZƏRBEYNƏLXALQ AUDİT MMC

SERİYA № 000228

"BOKT İDK" MMC- nin təsisçilərinə:

Maliyyə hesabatlarının auditinə dair hesabata

Rəy

Mən,Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilən 27.02.2024-cü il tarixli AT/048-saylı icazəyə əsasən fəaliyyət göstərən "Azərbeynalxalqaudit xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC-nin) direktor- auditor, Auditorlar Palatasının üzvü Əhmədov Misir Zaman oğlu, Sifarişçi **"BOKT İDK" MMC -** nin təsisçisi və qanuni təmsilçisi Əsgərov Əlyar Əsgər oğlu ilə bağlanmış 06.12.2025-cü il tarixli 000029 saylı müqaviləyə əsasən 01.01.2025-cü il tarixdən 31.12.2025-cü il tarixədək olan dövrünün fəaliyyətinə dair**"BOKT İDK" MMC -** nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və zərər, məcmu gəlirlər, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları **"BOKT İDK" MMC - nin** 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir (və ya düzgün və ədalətli təsəvvür yaradır).

Audit təqdim olunmuş sənədlər əsasında aparılmışdır. Təqdim olunmuş sənədlərin düzgünlüyünə təsərrüfat subyektinin rəhbərliyi məşuliyyət daşıyır.

Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatım "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq **"BOKT İDK" MMC** -dən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının BAS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, bilərəkdən və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının

hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik **"BOKT İDK" MMC** - -ni ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik **"BOKT İDK" MMC - -nin** fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər **"BOKT İDK" MMC - nin** maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyim daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

"Azərbeynəlxalqaudit xidməti"
MMC-nin Direktoru və auditoru: **Misir Əhmədov**

26 may 2026-ci il